Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

25
İYUN
2019-cu il
№ 110 (4008)
Qiyməti
40 qəpik

# BAKI XƏBƏR

www.baki-xeber.com

Həftədə
5 dəfə çıxır

Qəzet
2003-cü ildən
nəşr olunur

# ERMƏNİSTANIN RUSİYAYA QARŞI YENİ KAMPANİYASI - SƏFİR KONSTİTUSİYA MƏHKƏMƏSİNİ ƏLƏ ALMAQDA SUÇLANIR

səh. 8

Zakir Həsənovun ermənilərdə rezonans doğurmuş fikri - "Müharibəyə imkan verməyən beynəlxalq şərait"...

səh. 3

Azərbaycan sülh danışıqlarında Ermənistana tam psixoloji-siyasi təzyiq mühiti formalaşdırdı

səh. 9

Rusiya Gürcüstana sanksiyaları sərtləşdirir - Azərbaycana yeni iqtisadi perspektiv açılır...

səh. 7

Bakıda 500 əcnəbinin iştirakı ilə növbəti beynəlxalq tədbir - BMT-nin Dövlət Xidmətləri Forumunu necə qazandıq?

səh. 3

ABŞ Departamenti Azərbaycanın traffikinqlə mübarizəsini ənənəvi müsbət qiymətləndirirdi, bu il dəyişiklik baş verdi...

səh. 4

İstanbulda İmamoğlunun təkrar qələbəsi - Qardaş ölkənin, AKP-nin və CHP-nin tarixində yeni dönəm başladı...

səh. 6

İyun sosial islahatlarının aztəminatlı ailələrə birbaşa və dolayı təsirləri...

səh. 11

Elza Seyidcahan Yazıçılar Birliyində - şou-müğənninin iddialarına tanınmış yazıçılardan reaksiyalar...

səh. 15



səh. 2

## BMT Baş katibinin müavini Mehriban Əliyeva ilə görüşdə Azərbaycanın dövlət xidmətlərini təşkil etmək səviyyəsinə böyük qiymət verdi və Mehriban xanıma BMT-nin xüsusi mükafatını təqdim etdi



Qondarma «DQR»in ümumerməni yay oyunlarını dövlətlər boykot etdi

səh. 6

Ermənilərin beynəlxalq «Hayastan» fondu Azərbaycan torpaqlarında 64-cü obyekti tikir - Xocalı...

səh. 5



Dünyada daha bir bank manatla istiqraz buraxmaq niyyətini açıqlayıb

səh. 10

səh. 2

Vilayət Eyvazov ilk naziryanı müşavirədə Ramil Usubovun yeni vəzifəsini belə dəyərləndirdi - Prezidentin polisə böyük etimadı...



səh. 4

Bəs deyirdilər Bakıdakı Avropa Oyunları ilk və son olacaq... Belarus yolu davam etdirdi...



səh. 5

Gürcüstanda anti-Rusiya ovqatının alovlanması Ermənistanı niyə məmnun edib...



səh. 11

8 iyuldan sonra Rusiya turistlərinin Gürcüstandan Azərbaycana dönüşü gözlənir...



səh. 12

Yayın ortası - bazarlarda meyvə-tərəvəzin qiyməti düşmür...



# BMT Baş katibinin müavini Mehriban Əliyeva ilə görüşdə Azərbaycanın dövlət xidmətlərini təşkil etmək səviyyəsinə böyük qiymət verdi və Mehriban xanıma BMT-nin xüsusi mükafatını təqdim etdi

**İyunun 24-də Bakıda, Heydər Əliyev Mərkəzində Birləşmiş Millətlər Təşkilatı və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin birgə təşkilatçılığı ilə BMT-nin Dövlət Xidmətləri Forumu işə başlayıb.**

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Forumun açılış mərasimində iştirak və çıxış edib.

2003-cü ildən etibarən 23 iyun - BMT-nin Dövlət Xidmətləri Günü ərəfəsində hər il təşkil olunan bu Forumun keçirilməsində məqsəd dövlət idarəçiliyi, dövlət xidmətlərinin göstərilməsinin qabaqcıl modelləri, innovasiyalar və bu sahədə aktual məsələlər üzrə müzakirələrin aparılması, habelə dövlətlərin bu istiqamətlərdə qabaqcıl təcrübələrinin mübadiləsidir. Həmçinin Forum çərçivəsində dövlət xidmətləri sahəsində dünya üzrə ən qabaqcıl və innovativ modellər mükafatlandırılacaq.

Dünyanın 190-dan çox ölkəsindən 500-dən artıq nümayəndənin iştirak etdiyi builki Foruma müxtəlif ölkələrin dövlət idarəçiliyi və dövlət xidmətləri üzrə nazirləri, yerli idarəetmə orqanlarının, akademik dairələrin və özəl sektorun rəhbər şəxsləri qatılıb.

Dövlət xidmətlərinin göstərilməsi sahəsində ölkəmizdə təşkil olunan ilk BMT tədbiri olan Forum çərçivəsində plenar sessiyalar, 9 fərqli aktual mövzu üzrə seminar və 4 paralel tədbir təşkil ediləcək. Eyni zamanda, 5 fərqli kateqoriya üzrə BMT Dövlət Xidmətləri Mükafatının builki qaliblərinin təltif olunması, Dövlət Agentliyi ilə xarici ölkələrin bir sıra qurumları arasında əməkdaşlığa dair müqavilələrin imzalanması planlaşdırılır.

Forumun Azərbaycan Respublikasında keçirilməsinə zəmin yaradan ən önəmli amillər ölkəmizdə dövlət xidmətləri sahəsində qazanılmış nailiyyətlər, "ASAN xidmət"in uğurlu fəaliyyəti və 2015-ci ildə BMT-nin Dövlət Xidmətləri Mükafatına layiq görülməsidir.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Bakıda keçirilən Birləşmiş Millətlər Təşkilatının Dövlət Xidmətləri Forumunda iştirak edən BMT Baş katibinin iqtisadi və sosial məsələlər üzrə müavini Liu Cenminlə görüşüb.



Mehriban Əliyeva Birləşmiş Millətlər Təşkilatının Dövlət Xidmətləri Forumunun ölkəmizdə keçirilməsi barədə verilən qərara görə minnətdarlığını ifadə edib və forumun nəticələrinin dövlət xidmətlərinin islahatları ilə bağlı proseslərə, bu istiqamətdə fikir və təcrübə mübadiləsinin aparılmasında da iştirakçı ölkələrə faydalı olacağına ümid etdiyini bildirib. Azərbaycanın BMT ilə uğurlu əməkdaşlıq həyata keçirdiyini qeyd edən Mehriban Əliyeva Azərbaycanın müstəqilliyinin bərpa olunduğu ilk illərdən Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi nəticəsində ölkəmizdə 1 milyon qaçqın və məcburi köçkünə BMT tərəfindən göstərilən yardımı yüksək qiymətləndirib. Azərbaycanın son illərdə əldə etdiyi iqtisadi nailiyyətlərə toxunan Birinci vitse-prezident ölkəmizin həm də bir çox mötəbər beynəlxalq tədbirlərə ev sahibliyi etdiyini vurğulayıb və Bakıda Birləşmiş Millətlər Təşkilatının Dövlət Xidmətləri Forumunun da uğurla keçəcəyinə əminliyini ifadə edib.

Xoş sözlərə görə təşəkkür edən BMT Baş katibinin iqtisadi və sosial məsələlər üzrə müavini Liu Cenmin Forumun yüksək səviyyədə təşkilinə görə Azərbaycan rəhbərliyinə minnətdarlığını bildirib. Bakıda dövlət xidmətləri ilə bağlı növbəti Forumun keçirildiyini deyən Liu Cenmin bu Forumda xeyli sayda nümayəndənin iştirakının önəmini qeyd edib. Azərbaycanda dövlət xidmətlərinin çox təkmil və yüksək səviyyədə həyata keçirildiyini bildirən BMT Baş katibinin iqtisadi və sosial məsələlər üzrə müavini bütün bu işlərin Azərbaycan Prezidentinin rəhbərliyi sayəsində mümkün olduğunu vurğulayıb. Liu Cenmin BMT-nin təşkilata üzv 193 dövlətlə birgə 2032-ci il üçün Dayanıqlı İnkişaf Məqsədləri gündəliyinin icrası ilə məşğul olduğunu qeyd edib və bu işdə dövlət xidmətlərinin səviyyəsinin təkmilləşdirilməsinin xüsusi əhəmiyyət daşıdığını bildirib.

Sonda BMT Baş katibinin iqtisadi və sosial məsələlər üzrə müavini Liu Cenmin Birinci vitse-prezident Mehriban Əliyevaya ölkəmizdə rəqəmsal idarəetmənin tətbiqi ilə dövlət xidmətlərinin inkişafına görə BMT-nin xüsusi mükafatını təqdim edib.

# Vilayət Eyvazov ilk naziryanı müşavirədə Ramil Usubovun yeni vəzifəsini belə dəyərləndirdi - Prezidentin polisə böyük etimadı...

**İyunun 22-də Daxili İşlər Nazirliyində nazir müavinlərinin, baş idarə, idarə və paytaxtın polis orqanları rəislərinin iştirakı ilə Nazirliyin əməliyyat müşavirəsi keçirilib.**

Müşavirəni giriş sözü ilə açan Daxili işlər naziri, polis general-leytenantı Vilayət Eyvazov respublikanın daxili işlər orqanlarına 25 ildən artıq bir müddətdə rəhbərlik etmiş general-polkovnik Ramil Usubovun Təhlükəsizlik Şurasının katibi kimi yüksək dövlət vəzifəsinə təyin edilməsinin Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin daxili işlər orqanlarına böyük etimadının daha bir əyani ifadəsi olduğunu vurğulayıb.

Nazir V.Eyvazov cənab Prezidentin ölkədə asayişin və təhlükəsizliyin təmin edilməsi sahəsində görülən işləri və əldə edilmiş nəticələri yüksək qiymətləndirdiyini xüsusi qeyd edib, qazanılan uğurlarla bərabər, əməliyyat-xidməti fəaliyyətdə bəzi nöqsan və çatışmazlıqların mövcudluğunu da xatırladaraq onların həlli yollarını göstərib, bu istiqamətdə tapşırıq və tövsiyələrini verib.

Qarşıya qoyulmuş mühüm vəzifələrdən söz açan daxili işlər naziri bu sırada polisin qanunla müəyyən edilmiş vəzifələrinin hər bir struktur qurumda operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyət və rahatlıq prinsipləri əsasında həyata keçirməsinin, əməkdaşların etik davranış qaydalarına ciddi əməl etmələrinin, bu işə nəzarətin gücləndirilməsinin zəruriliyini və müvafiq istiqamətlərdə fəaliyyətin sistemli şəkildə davam etdirilməsini tələb edib.

Həmçinin, cinayətkarlığa qarşı mübarizədə əldə olunmuş müsbət nəticələrin inkişaf etdirilməsinin, asayişin və təhlükəsizliyin daha etibarlı qorunmasının, orqan və hissələrdə qanunçuluğun möhkəmləndirilməsinin, bu mühüm istiqamətlərdə fəaliyyətin təşkilinə Nazirliyin aparatının struktur qurumlarının, ərazi orqanlarının və nizami polis hissələrinin rəhbərliyinin böyük məsuliyyət hissi ilə yanaşmasının, cinayətlərin qarşısının vaxtında alınması, açılması funksiyalarının ciddi nəzarətdə saxlanılmasının və layiqincə həyata keçirilməsinin vacibliyini iştirakçıların nəzərinə çatdırıb. Eyni zamanda, qeyd edilib ki, şəxsi heyətin Heydər Əliyev ideallarına sədaqət ruhunda tərbiyə olunması işi davamlı aparılmalı, vətəndaşların müraciətlərinə baxılmasına, qəbuluna daim xüsusi həssaslıqla yanaşılmalı, cinayətlərdən zərər çəkmiş şəxslərin hüquqlarının bərpası ilə bağlı məsələlərin həllində hər zaman operativlik göstərilməlidir. İnsanların hüquqları, azadlıqları, qanuni mənafeləri yüksək səviyyədə qorunmalı, bu iş bütün struktur qurumlarda rəhbər heyətin şəxsi nəzarəti altında gündəlik həyata keçirilməlidir.



Müşavirənin yekununda nazir Vilayət Eyvazov qeyd edib ki, Prezident İlham Əliyevin tələb və göstərişlərinə uyğun olaraq, ölkədə vətəndaş məmnunluğunun təmin edilməsi, polisin insanların güvənc yerinə çevrilməsi, bütövlükdə cəmiyyətdə polisin nüfuzunun daha da yüksəldilməsi yönümündə fəaliyyət sistemli şəkildə davam etdirilməlidir.



# Gürcüstan hakimiyyəti etirazçıların daha bir tələbini yerinə yetirdi - proporsional seçki bərpa olundu...

**Gürcüstanda 2020-ci il parlament seçkiləri proporsional sistemə uyğun həyata keçiriləcək.**

Sputnik Gürcüstan xəbər verir ki, bu barədə hakim "Gürcü Arzusu - Demokratik Gürcüstan" partiyasının təsisçisi və sədri Bidzina İvanişvili deyib. Bununla da, hakim partiya Tiflisdə iyunun 20-dən mitinqlər keçirən vətəndaşların ikinci tələbini yerinə yetirib.

İvanişvili bildirib ki, "Gürcü Arzusu - Demokratik Gürcüstan" partiyası genişmiqyaslı siyasi islahatın həyata keçirilməsi təşəbbüsünü irəli sürür.

"2020-ci ilin parlament seçkiləri proporsional sistemə uyğun, seçicilər üçün sıfır maneə şəraitində keçirilməlidir", - deyə o bildirib.

Ölkənin Baş naziri Mamuka Baxtadze jurnalistlərə deyib ki, "Bidzina İvanişvili misli olmayan bir qərar səsləndirib".

# Zakir Həsənovun ermənilərdə rezonans doğurmuş fikri - "Müharibəyə imkan verməyən beynəlxalq şərait"...

**Müdafiə naziri Zakir Həsənovun bir neçə gün əvvəl işlətdiyi fikir ətrafında erməni KİV-i müxtəlif təhlillər aparır. Qeyd edək ki, həmin çıxışında nazir bildirib ki, Azərbaycan Ordusu istənilən an 2016-cı ilin aprel qələbəsini təkrar etməyə hazırdır. Nazir bəyan edib ki, Azərbaycan Ordusu hərbi əməliyyatlar keçirib torpaqlarımızı erməni işğalından azad etmək gücündədir.**



## Fikrət Sadıqov: *"Biz həmin beynəlxalq maneəni aradan qaldırmaq üzərində ciddi işləməliyik"*

Amma hələlik beynəlxalq şərait bunu etməyə imkan vermir, dövlət başçısı isə münaqişənin sülh yolu ilə nizamlanması üzrə böyük işlər aparır.

Zakir Həsənov qeyd edib ki, Azərbaycan Silahlı Qüvvələri daim möhkəmlənir, yeni silah növləri əldə edir, müntəzəm olaraq döyüş şəraitinə maksimum yaxınlaşdırılmış şəraitdə irimiqyaslı təlimlər keçirilir. Qeyd edək ki, beynəlxalq şəraitin müharibəyə başlamağımıza imkan verməyəcəyi fikri müdafiə nazirinin dilindən məhz ilk dəfədir səslənir. Bu tip açıqlamaları indiyə qədər adətən xarici işlər naziri, diplomatlar, politoloqlar, deputatlar veriblər.

Bu baxımdan da maraqlıdır, Zakir Həsənovun müharibənin başlanmasına mane olan şəraitin detalları nədən ibarət ola bilər?

**Politoloq Fikrət Sadıqov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Azərbaycan problemin sülh yolu ilə həllini ATƏT-in Minsk Qrupuna həvalə edib və tərəflərə problemin müharibə vasitəsilə həllindən çəkinmək tövsiyə olunur:** "Görünür, müdafiə naziri həm də bu məqamı nəzərdə tutur. Burada söhbət müharibədən gedə bilməz. Çünki bizim işğal edilmiş torpaqlarımızı azad etmək üçün öz ərazimizdə antiterror əməliyyatlarına başlamaq kimi ixtiyarımız var. Bunun adı müharibə deyil. Ancaq real danışsaq, etiraf etməliyik ki, status-kvonun pozulması bəzi aparıcı ölkələrə sərf etmir. Biz bunu 2016-cı ilin aprel döyüşlərində də hiss etdik. Proses məhz həmin ölkələrin təkidi ilə dayandı. Ermənistanın arxasında Rusiya durur. Amma bu o demək deyil ki, digər ölkələr onları dəstəkləmir. Əksinə, onlar da biganəlik nümayiş etdirirlər. Üzərimizə bərabər məsuliyyət qoyaraq, sülhə çağırırlar. Amma bu heç də o anlama gəlmir ki, sonu bəlli olmayan müddətə gözləməliyik. Bu gün biz hərbi əməliyyatlarla torpaqlarımızı azad etməyə başlasaq, ayrı-ayrı dövlətlər, beynəlxalq təşkilatlar təbii ki, bizi qınayacaqlar, növbətçi bəyanatlar verəcəklər və sair.

*"Hərbi əməliyyatlar başlayacağı halda yalnız Rusiya çox ciddi reaksiya verə bilər"*

Hazırda dünyada baş verən beynəlxalq proseslərin içində Dağlıq Qarabağ məsələsi çox kiçik görünür.

Bu səbəbdən də biz həmin beynəlxalq maneəni aradan qaldırmaq üzərində ciddi işləməliyik. Hərbi əməliyyatlar başlayacağı halda yalnız Rusiya çox ciddi reaksiya verə bilər. Digər ölkələrin reaksiyası ona adekvat olan deyil. Bu təsirləri neytrallaşdırıb, BMT qətnamələrinin icrasını təmin etməliyik. Əlimizdə bizim xeyrimizə olan beynəlxalq sənəd də var".

***Məhəmmədəli QƏRİBLİ***

# Bakıda 500 əcnəbinin iştirakı ilə növbəti beynəlxalq tədbir - BMT-nin Dövlət Xidmətləri Forumunu necə qazandıq?

**Beynəlxalq tədbirləri olduqca yüksək səviyyədə keçirən Azərbaycan növbəti beynəlxalq tədbirə evsahibliyi edir. Məlum olduğu kimi, iyunun 24-də Heydər Əliyev Mərkəzində Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Birləşmiş Millətlər Təşkilatı ilə birgə keçirdiyi BMT-nin Dövlət Xidmətləri Forumu öz işinə başlayıb.**

Qeyd edək ki, forum 2003-cü ildən etibarən 23 iyun - BMT-nin Dövlət Xidmətləri Günü ərəfəsində hər il təşkil olunur. Bu forumun keçirilməsində məqsəd dövlət idarəçiliyi, dövlət xidmətlərinin göstərilməsinin qabaqcıl modelləri, innovasiyalar və bu sahədə aktual olan məsələlər üzrə müzakirələrin aparılması, habelə dövlətlərin bu istiqamətlərdə qabaqcıl təcrübələrinin mübadiləsidir. Həmçinin, forum çərçivəsində dövlət xidmətləri sahəsində dünya üzrə ən qabaqcıl və innovativ modellər mükafatlandırılır.

Paytaxtımızda öz işinə başlayan forumda dünyanın 190-dan çox ölkəsindən 500-dən artıq nümayəndə iştirak edir. Builki forumda BMT baş katibinin müavini cənab Lui Zenmin, o cümlədən, müxtəlif ölkələrin dövlət idarəçiliyi və dövlət xidmətləri üzrə nazirləri, yerli idarəetmə orqanlarının, akademik dairələrin və özəl sektorun rəhbər şəxsləri iştirak edirlər.

Məlumatlara görə, forumun Azərbaycan Respublikasında keçirilməsinə zəmin yaradan ən önəmli amillər ölkəmizdə dövlət xidmətləri sahəsində qazanılmış nailiyyətlər, "ASAN xidmət"in uğurlu fəaliyyəti və 2015-ci ildə BMT-nin Dövlət Xidmətləri mükafatına layiq görülməsidir.

Belə nüfuzlu forumun Azərbaycanın evsahibliyi ilə keçirilməsinə əsas verən amillər nədir?

**"İki sahil" qəzetinin baş redaktoru, politoloq Vüqar Rəhimzadə "Bakı-Xəbər"ə bildirdi ki, belə nüfuzlu bir forumun Azərbaycanda keçirilməsi və bura olduqca nüfuzlu şəxslərin qatılması təsadüfi deyil.** V.Rəhimzadə hesab edir ki, bu, ölkəmizin beynəlxalq aləmdə qazandığı müsbət imicin göstəricisidir. "Hesab edirəm ki, Azərbaycan həm iqtisadi qüdrətinə, həm siyasi nüfuzuna görə yalnız regional deyil, eyni zamanda da beynəlxalq tədbirlərin keçirilməsi üçün əlverişli məkandır. Ölkəmizdə çox sistemli şəkildə dünyanın nüfuzlu beynəlxalq təşkilatlarının beynəlxalq tədbirləri keçirilir. İyunun 24-də açılış mərasimi olan BMT-nin Dövlət Xidmətləri Forumu kimi bir tədbirin Azərbaycanda reallaşdırılması dünya birliyinin ölkəmizə inamının, münasibətinin göstəricisidir. Azərbaycan təkcə bu foruma deyil, eyni zamanda, böyük humanitar, iqtisadi forumlara, idman yarışlarına, musiqi yarışmalarına uğurla evsahibliyi edib. Bütün bu layihələrə ölkəmiz yüksək səviyyədə evsahibliyi edib. Düşünürəm ki, Azərbaycan dünya üçün nümunə ola biləcək bir model kimi dünyada belə layihələrin reallaşdırılmasının nə qədər əhəmiyyətli olmasını özünün yüksək evsahibliyi qabiliyyətilə təsdiqləyib. Azərbaycan ən böyük beynəlxalq layihələrin həyata keçirilməsində dünyanın ən uğurlu ünvanlarından biridir" - deyə V.Rəhimzadə vurğuladı.



## Vüqar Rəhimzadə: *"BMT-nin Dövlət Xidmətləri Forumu kimi bir tədbirin Azərbaycanda reallaşdırılması dünya birliyinin ölkəmizə inamının, münasibətinin göstəricisidir"*

## Bəhruz Quliyev: *"Azərbaycanın imici yüksəldikcə, ölkəmiz beynəlxalq tədbirlərə, forumlara, yarışlara evsahibliyi etmək hüququ qazanır"*



**"Səs" qəzetinin baş redaktoru, politoloq Bəhruz Quliyev də hesab edir ki, Azərbaycanın bütün beynəlxalq tədbirlərə uğurla evsahibliyi etməsi belə bir nüfuzlu tədbirin ölkəmizdə keçirilməsinə əsas verib.** "Qeyd edim ki, ölkəmizdə keçirilən forumun özü də təsdiq edir ki, Azərbaycan bu gün beynəlxalq tədbirləri uğurla keçirir.

Bu da onu göstərir ki, Azərbaycanın artıq beynəlxalq münasibətlər sistemində öz yeri müəyyənləşib. Düzgün aparılan xarici siyasətin kökündə bir Azərbaycan marağı var. Cənab Prezident qeyd edir ki, bizim apardığımız xarici siyasət milli maraqlara söykənən siyasətdir. Onların hər biri beynəlxalq münasibətlər sistemində Azərbaycanın öz yerinin real müəyyənləşməsinə imkan verir. Ölkəmizin regionda güclü bir dövlət kimi söz sahibinə çevrilməsi kimi amillər də burada rol oynayır. Dövlətin söz sahibinə çevrilməsi üçün ilk növbədə o müstəqil siyasət aparmağı bacarmalıdır, digər tərəfdən, regionda böyük layihələrə təşəbbüskarlıq göstərməli və təşkilatçılıq etməlidir. Azərbaycan bunu bacarır. Ölkəmiz regiondakı bir sıra layihələrin təşəbbüskarıdır və eyni zamanda, təşkilatçıdır. Həmçinin, daxili sabitlik, iqtidar və xalq birliyi, dövlət daxilində aparılan düzgün siyasət və s.

**Azərbaycanın imicinin formalaşmasına xidmət edir. Belə hesab edirəm ki, Azərbaycanın imici yüksəldikcə, ölkəmiz beynəlxalq tədbirlərə, forumlara, yarışlara evsahibliyi etmək hüququ qazanır. Bu da kiminsə istəməyindən və istəməməyindən asılı deyil, Azərbaycanın gücünün göstəricisi kimi xarakterizə oluna bilər" - deyə B.Quliyev qeyd etdi.**

***İradə SARIYEVA***

# ABŞ Departamenti Azərbaycanın traffikinqlə mübarizəsini ənənəvi müsbət qiymətləndirirdi, bu il dəyişiklik baş verdi...

**ABŞ Dövlət Departamenti 2019-cu ildə dünyada insan alveri haqqında hesabat dərc edib. Hesabatda deyilir ki, Azərbaycan hökuməti insan alverinin ləğvi üçün, minimum standartlara cavab verməsə də, bu istiqamətdə əhəmiyyətli səylər göstərir. Azərbaycan hökumətinin addımlarının əvvəlki dövrlə müqayisədə zəifləndiyi, məhkəmələrin isə traffikinqdə təqsirli bilinənlərə şərti cəza çıxardığı qeyd edilir.**



Qeyd olunur ki, Azərbaycanda xaricə gedən miqrantlar üçün xəbərdarlıq kampaniyaları artırılıb. Buna baxmayaraq, Azərbaycan hökumətinin səyləri əvvəlki dövrlə müqayisədə zəif olub, bu sahədə cinayət təqibi zəifləyib və məhkəmələr traffikinqdə ittiham olunanların hamısı üçün şərti cəzalar verməklə kifayətlənib. O da qeyd olunur ki, Azərbaycan hökuməti habelə QHT-lər tərəfindən idarə olunan sığınacaqların saxlanmasına maliyyə dəstəyi verməyib. Hesabatda deyilir ki, guya büdcə təşkilatları işçilərinin pambıq yığımına cəlb edilməsinə dair məlumatlar var.

Məhz bütün bunlara görə Azərbaycanın reytinqi azaldılıb və o, 2-ci dəstənin içərisində xüsusi nəzarət siyahısına daxil edilib. Nəzarət siyahısında Azərbaycandan başqa, Əfqanıstan, Konqo, İraqla yanaşı, keçmiş sovet respublikalarından Qazaxıstan, Qırğızıstan, Özbəkistan da var. Avropa ölkələrindən bu siyahıda yalnız Macarıstan qərar tutub.

## *Sahib Məmmədov: "Departamentin insan alveri ilə bağlı hesabatları bir sıra hallarda həqiqəti əks etdirmir"*

Departamentin sözügedən hesabatında Azərbaycanla bağlı məqamlar təəccüb doğurur. Ona görə ki, əvvəlki hesabatlarda Azərbaycanda bu sahədə irəliləyişlərin olduğu, bir sıra indekslər üzrə müsbət dinamikaların qeydə alındığı göstərilib. Ənənəvi olaraq hesabatlarda Azərbaycanda əsasən müsbət məqamlar yer alıb. Belə olan halda, son hesabatda səslənən tənqidi fikirlər nə dərəcədə əsaslıdır?

Məsələyə münasibət bildirən hüquq müdafiəçisi Sahib Məmmədovun sözlərinə görə, hesabatda Azərbaycanla bağlı səslənən tənqidi fikirlər əsaslı deyil: "ABŞ Dövlət Departamentinin insan alveri ilə bağlı hesabatları bir sıra hallarda həqiqəti əks etdirmir. Hesabat ABŞ dövlətinin digər dövlətə münasibətini göstərir. Yəni hansısa bir dövlətlə ABŞ-ın münasibətləri yaxşıdırsa, o zaman hesabatlar yaxşı olur. Yaxşı olmayanda bu, hesabatlara da təsir edir. Son hesabatda Azərbaycanla bağlı tənqidlər, bir növ, siyasi xarakterlidir. Nəzərə almaq lazımdır ki, Azərbaycanda insan alveri ilə mübarizə sahəsində vəziyyət pisləşməyib. Eyni zamanda, əvvəlki illərlə müqayisədə pisliyə doğru bir tendensiya müşahidə edilmir.

*"Azərbaycanda insan alveri ilə mübarizə sahəsində vəziyyət pisləşməyib"*

Keçən il bir cür, bu il başqa cür yazmaq sənədin ciddiliyinə kölgə salır. Bu üzdən, həmin hesabatı o qədər də səriştəli sənəd hesab etmirəm.

Ola bilər ki, məlumat mənbələri qərəzli olub, yaxud da hansısa amili əsas götürüblər. Digər tərəfdən, ABŞ Dövlət Departamentinin insan alveri ilə bağlı hesabatında istifadə edilən indikatorlar açıqlanmır.

**O mənada ki, biləsən hansı indikatorlar əsasında bu qiymətləndirmə aparılır. Başqa bir tərəfdən, Azərbaycanda İnsan Alverinə Qarşı Mübarizə üzrə Milli Koordinatorun hesabatına baxanda məlum olur ki, bizdə bu sahədə dinamika müsbətdir".**

***Vidadi ORDAHALLI***

# Bəs deyirdilər Bakıdakı Avropa Oyunları ilk və son olacaq... Belarus yolu davam etdirdi...

**Azərbaycan dövlət müstəqilliyi qazandıqdan sonra özünün tamamilə yeni bir dövrünə qədəm qoydu. Bu gün dünyada özünə böyük nüfuz qazanan ölkəmiz idman, mədəniyyət və digər sahələrdə beynəlxalq aləmə bir sıra ilklər bəxş edib. Lakin bəzi xarici qüvvələr ölkəmizin bu addımlarına qarşı təxribatçı hərəkətlərə yol verib, bu ətrafda qarayaxma kampaniyası aparıblar.**




2015-ci ildə ölkəmizin təşəbbüsü və evsahibliyi ilə keçirilən I Avropa Oyunlarına qarşı da bədxahlarımız qara piar kampaniyası aparıb, ümumiyyətlə, bu oyunların baş tutmayacağını, baş tutsa belə, perspektivinin olmadığını deyirdilər. Əlbəttə, İlk Avropa Oyunlarının ölkəmiz tərəfindən çox yüksək səviyyədə təşkil edilməsi, böyük uğurla başa çatması bədxahlarımızın niyyətlərini gözündə qoydu.

Qeyd edək ki, 2015-ci il 12 iyundan 28 iyuna qədər Azərbaycanın paytaxtı Bakı şəhərində keçirilən I Avropa Oyunları tarixdə ilk dəfə keçirilən idman yarışı olub və bu yarışlarda Avropanın 50 ölkəsinin 10 000 idmançısı mübarizə aparıb.

Bu gün II Avropa Oyunları Belarus Respublikasında keçirilir və bu da "bu yarışın heç bir perspektivi olmayacaq, Azərbaycandan sonra başqa ölkələrdə keçirilməyəcək" iddiası ilə çıxış edən anti-Azərbaycan qüvvələrinin üzünə vurulan sərt bir sillədir.

## *Elçin Mirzəbəyli: "Əlbəttə, bədxahlarımızın apardığı çirkin kampaniya öz bəhrəsini vermədi və II Avropa Oyunları Belarusun evsahibliyi ilə uğurla davam edir"*

Belarusda II Avropa Oyunları davam edir və Azərbaycanın başlatdığı bu mötəbər idman yarışı dünyanın diqqət mərkəzindədir.

**"Xalq cəbhəsi" qəzetinin baş redaktoru, politoloq Elçin Mirzəbəyli məsələni "Bakı-Xəbər"ə şərh edərkən bildirdi ki, Azərbaycanın başlatdığı bütün beynəlxalq tədbirlər bədxahlarımızı narahat etsə də, onların uğurla başa çatması ölkəmizin nüfuzunun daha da yüksəlməsinə səbəb olub.** "Əlbəttə, bədxahlarımızın apardığı çirkin kampaniya öz bəhrəsini vermədi və II Avropa Oyunları Belarusun evsahibliyi ilə uğurla davam edir. Artıq III Avropa Oyunlarının keçiriləcəyi ölkə də məlumdur, bu, Polşadır. Bu baxımdan da Avropa Oyunlarının davamlı olacağı heç bir şübhə doğurmur. Avropa Oyunları artıq öz yerini tutub, o ən nüfuzlu beynəlxalq idman yarışları sırasındadır. Ümumiyyətlə, keçirilən yarışın yüksək səviyyədə təşkili Azərbaycanın önəmli bir məsələni başlatdığını önə çəkdi. Ölkəmizin bütün başlanğıcları Azərbaycanı sevməyən dairələr tərəfindən hər zaman aqressiv formada qarşılanıb. Daha sonradan isə əks münasibətin şahidi olmuşuq. Vicdanı olanlar həyata keçirdikləri qara piar kampaniyasına görə Azərbaycandan üzr istəyiblər, xüsusi təlimat əsasında ölkəmizə qarşı antitəbliğat aparan qüvvələr isə öz əməllərini ənənəvi davam etdiriblər.

*"Bu baxımdan da Avropa Oyunlarının davamlı olacağı heç bir şübhə doğurmur"*

Bakıda keçirilən UEFA kubokunun son final oyunu ərəfəsində ölkəmizə qarşı qara piar kampaniyasını xatırlayın. Madriddə keçirilən Avropa Çempionlar Liqasının finalından sonra artıq bir çoxu Azərbaycandan buna görə üzr istəyib və bəyan ediblər ki, möhtəşəm bir təşkilatçılıq həyata keçirilib. Bu bizim, bir növ, taleyimizdir. Müstəqilliyimizi əldə etdikdən sonra mübarizə apara-apara, savaşa-savaşa dövlətimizi irəliyə doğru aparırıq. Azərbaycan siyasi hakimiyyəti də, Azərbaycan xalqı da bizə qarşı aparılan bu kampaniyanın mahiyyətində nə dayandığını kifayət qədər yaxşı başa düşür. Bütün bu faktorların qabağında isə təbii ki, dövlət və xalq birliyi dayanır".

**E.Mirzəbəyli qeyd etdi ki, bundan sonra da ölkəmizə qarşı aparılan bütün çirkin kampaniyalar iflasa uğrayacaq. Onun sözlərinə görə, III, IV, V, VI və digər Avropa Oyunları uğurla keçiriləcək. "Amma bütün bunların hər birində ilk dəfə Bakının buna cəsarət etdiyi və belə bir önəmli yarışı Avropaya bəxş etdiyi hər zaman vurğulanacaq" - deyə E.Mirzəbəyli bildirdi.**

***İradə SARIYEVA***

Ümumerməni "Hayastan" fondu Azərbaycanın 28-ci ildir işğal altında qalan Xocalı rayonunun "Xndzristan" adlandırılmış Almalı kəndində yeni ictimai mərkəz açıb. Separatçı nəşrlərin yaydığı məlumata görə, mərkəz əsasən fondun Kanada filialının üzvləri olan erməni xeyriyyəçilər Sarkis və Aykun Marancyanların vəsaiti hesabına tikilib.

# Ermənilərin beynəlxalq "Hayastan" fondu Azərbaycan torpaqlarında 64-cü obyekti tikir - Xocalı...

***İsmayıl Ağayev:** "Həmin ölkələrdəki qurumlar, eyni zamanda, fondun mərkəzi ofisi məhkəməyə verilməlidir"*



Mərkəzin binasında kənd "icra nümayəndəliyi", kitabxana, tibb məntəqəsi, rəsm qalereyası və akt zalı olacaq. Qeyd edilir ki, bu, Azərbaycan torpaqlarında "Hayastan" fondunun sponsorluğu ilə açılmış 64-cü ictimai mərkəzdir. Bəllidir ki, sözügedən fond Ermənistanda qeydiyyatdan keçməyib. Ancaq onun müxtəlif ölkələrdə olan nümayəndəlikləri vasitəsilə işğal olunmuş ərazilərimizdə müəyyən bərpa işləri aparılır. Bütün bunları əslən erməni olan xarici ölkə vətəndaşları görür. İstənilən halda, onların bu hərəkəti qanunsuzdur. Çünki həmin ərazilərə gediş-gəliş, işlərin görülməsi mütləq mənada Azərbaycanın icazəsi əsasında olmalıdır. Fond bütün bu tələbləri pozursa, onun fəaliyyətinin qarşısını almaq üçün nələr edilməlidir?

Beynəlxalq Diaspor Mərkəzinin rəhbəri İsmayıl Ağayev "Bakı-Xəbər"ə bildirdi ki, sözügedən fond ermənilərin bütün qanunsuz əməllərini həyata keçirmək üçün donorluq edir: "Demək olar ki, dünyanın müxtəlif ölkələrində nümayəndəlikləri olan həmin fond Qarabağ müharibəsi başlayandan ora böyük diqqət və sərmayə ayırır. Separatçı rejimlə bağlı olan bütün iri layihələr (bura yol çəkilişləri, su təminatını həll etmək aiddir) onlar tərəfindən həyata keçirilir. Birmənalı şəkildə qadağan olunan fəaliyyətdir. İndi də işğal altında olan və heç vaxt ermənilərin yaşamadığı məntəqələrdə infrastruktur qururlar. Bu bilirsiniz nə deməkdir? Yəni orada bir daha azərbaycanlıların yaşamayacağına ümidlidirlər. Bu mesajı həm özlərinə, həm də bizə vermək istəyirlər. İşğal olunmuş Dağlıq Qarabağ və ətraf ərazilərdə nəinki layihə icra etmək, hətta ora əliboş səfər etmək də bizim icazəmiz olmadan qadağandır. Ancaq görürsünüz ki, onlar bunu edirlər. Bizim etirazımız yalnız mətbuat üzərindən, bəyanatlar səviyyəsində olur. Ancaq əməli fəaliyyət ortaya qoyulmalıdır. Bütün bu faktlar toplanmalı və "Hayastan" fondunun hansı nümayəndəliyi belə qanunsuz addımları atırsa, həmin ölkələrdəki qurumlar, eyni zamanda, fondun mərkəzi ofisi məhkəməyə verilməlidir.

*"Mükəmməl şəkildə, ciddi faktların toplandığı bir iddia ilə məhkəməyə müraciət olunsa..."*

Mükəmməl şəkildə, ciddi faktların toplandığı bir iddia ilə məhkəməyə müraciət olunsa, onların fəaliyyəti dayandırıla bilər. Çünki ortada kifayət qədər ciddi əsaslar mövcuddur ki, bunu da beynəlxalq hüquq qadağan edir.

Hesab edirəm ki, həmin ölkələrdə olan səfirliklərimiz bu işə start verməlidirlər. Həmin fondun vəsaitləri çox olduğu üçün, Paşinyan da onu nəzarətə keçirmək istəyir. Onlar əvvəlcə yardımı Ermənistana edirdilər, bütün işləri hökumət görürdü. Serj Sarkisyanın dönəmində fondla Ermənistan rəhbərliyi arasında ciddi fikir ayrılığı yarandı. Fonddan iddia etdilər ki, onların ayırdığı vəsait Ermənistanın rəhbərliyi tərəfindən talanır. Bu səbəbdən də hazırda bütün layihələri özləri həyata keçirirlər. Bununla bizim əlimizə ciddi əsaslar verirlər ki, onlarla hüquq müstəvisində mübarizə aparaq".

***Məhəmmədəli QƏRİBLİ***

Məlum olduğu kimi, Pravoslav Parlamentlərarası Assambleyasının Tiflisdə keçirilən iclası zamanı Rusiya nümayəndə heyətinin rəhbəri, Dövlət Dumasının deputatı Sergey Qavrilov Gürcüstan parlamentinin spikerinin kreslosunda oturub. Həmin məqamda spiker İrakli Kobaxidze Azərbaycanda səfərdə idi.

# Gürcüstanda anti-Rusiya ovqatının alovlanması Ermənistanı niyə məmnun edib...

***Məhəmməd Əsədullazadə:** "Ermənilər hesab edirlər ki, Gürcüstanda vəziyyətin qarışması bu ölkəyə qarşı ərazi iddialarına zəmin yaradar"*



Rusiyalı deputata hakimiyyət tərəfindən bu cür diqqətin göstərilməsi müxalifəti hiddətləndirib və iyunun 20-də axşam Gürcüstanda çoxminli etirazlar başlayıb.

Baş verən hadisələr Gürcüstanda anti-Rusiya ovqatını gücləndirib. Eyni zamanda, iki ölkə arasında onsuz da soyuq olan münasibətlərə öz təsirini göstərib. Rusiya Prezidenti Vladimir Putin Gürcüstanda baş verən son hadisələri Təhlükəsizlik Şurasının iclasında müzakirə edib. Müzakirələrin ardınca Putin Rusiya aviaşirkətlərinin Gürcüstana uçuşlarının iyulun 8-dən etibarən dayandırılması haqda sərəncam verib. Bu qərar "Rusiyanın milli təhlükəsizliyinin təmin edilməsi, Rusiya vətəndaşlarının "cinayətkar və digər qanunsuz hərəkətlərdən qorunması zərurəti" ilə əsaslandırılır. Habelə sərəncama əsasən, turoperatorlara və turagentlərə tövsiyə edilir ki, Gürcüstan kurortlarına turpaketlərin satışından çəkinsinlər. Digər tərəfdən, Rusiya XİN-i bəyanatla çıxış edərək ölkə vətəndaşlarına "şəxsi təhlükəsizlikləri baxımından" Gürcüstana səfərlərdən çəkinməyi tövsiyə edib. Bütün bunlar iki ölkə arasında münasibətləri bir az da gərginləşdirib.

Ən maraqlı məqam ondan ibarətdir ki, Gürcüstanda müşahidə olunan ani-Rusiya ovqatı Ermənistan mediasında böyük məmnunluqla və maraqla izlənir. Açıq-aydın hiss olunur ki, erməni mediası bunu böyük şadyanaqlıqla izləyir. Sanki bütün bu proseslər, necə deyərlər, ermənilərin ürəyincədir. Ermənistan təcavüzkar siyasət apardığına görə Azərbaycan və Türkiyə bu ölkə ilə sərhədləri bağlayıb. Ermənistan Avropa və Rusiya ilə əlaqələri Gürcüstan üzərindən həyata keçirir. Bu kontekstdən yanaşsaq, erməni mediası, əslində, narahat olmalıdır. Ancaq tam əksinə olaraq, erməni mətbuatı Gürcüstandaki ant-Rusiya ovqatının güclənməsindən sevinir.

Maraqlıdır, bu nə ilə bağlıdır? Bunun arxasında hansı niyyət dayanır?

*"Onlar çalışırlar ki, Rusiya bu ölkəyə müdaxilə etsin və nəticədə Cavaxetiyada yeni etirazlara səbəb olacaq proseslərə start versinlər"*

**Sözügedən məsələni "Bakı-Xəbər"ə şərh edən politoloq Məhəmməd Əsədullazadə buna bir neçə kontekstdən yanaşdı:** "Gürcüstanla Rusiya arasında davam edən siyasi qalmaqal iki ölkə arasında dərin siyasi problemdən qaynaqlanır. Ermənistan mediasının bundan istifadə edib məmnun olması bu xalqın xislətindən xəbər verir. Ermənistan daim Rusiyanın əlaltısı olub, qonşularına qarşı aqressiya həyata keçirib. Ermənistan cəmiyyəti hesab edir ki, Gürcüstanın Rusiya ilə əlaqələrini zəifləməsi bu ölkədən turist axınının qarşısını alacaq. Nəticədə həmin turistlər Ermənistana səfər edəcəklər. Bundan əlavə, hesab edirlər ki, Gürcüstanda vəziyyətin qarışması bu ölkəyə qarşı ərazi iddialarına zəmin yaradar. Nəzərə almaq lazımdır ki, Cavaxetiyada ermənilər separatizmə meyllidir və Ermənistanda müəyyən dairələr bu bölgənin müstəqilliyi məsələsini zaman-zaman qabardırlar. Hesab edirem ki, buradakı müəyən qüvvələr media vasitəsilə özlərini Rusiyaya yaxın göstərməklə, Cavaxetiyada növbəti münaqişə ocağı yaratmaq niyyətindədirlər. Məhz baş verənlər Gürcüstanın ərazi bütövlüyünə qarşı yönəlib və o üzdən, ermənilər ölkədə baş qaldıran anti-Rusiya ovqatından məmnundurlar. Ermənilər çalışırlar ki, Rusiya bu ölkəyə müdaxilə etsin və nəticədə Cavaxetiyada yeni etirazlara səbəb olacaq proseslərə start versinlər. Gürcüstanın demokratik imicinin qorunmasını qəbul etmirlər. Rusiya vasitəsilə bu ölkənin çökdürülməsində maraqlıdırlar".

***Vidadi ORDAHALLI***

# Qondarma "DQR"in ümumermәni yay oyunlarını dövlәtlәr boykot etdi

**Çirkin oyunların və saxtakarlığın mahir oyunçuları olan ermənilər təxribatçı əməllərini davam etdirirlər. Qəribədir ki, ermənilərin bu oyunlarını beynəlxalq qurumlar sükutla qarşılayırlar. Uzun illərdir Azərbaycan torpaqlarını işğal altında saxlayan ermənilər bizim ərazilərimizdə ağılasığmaz işlər həyata keçirirlər.**

*"Göründüyü kimi, artıq bu yarışın saxta və qondarma olduğunu dərk edən respublikalar var"*

Onların bu əməlləri bütün beynəlxalq tələblərə, konvensiyalara, hətta bəşəriyyəti ciddi qayğılandıran humanizm prinsiplərinə ziddir.

Qondarma "Dağlıq Qarabağ Respublikası"nın saxta rəhbəri Bako Saakyan erməni mətbuatına bildirib ki, avqust ayında "Artsax"da VII ümumermәni yay oyunları keçiriləcək. Oyunların keçirilməsinə böyük hazırlıq getdiyini deyən B.Saakyanın sözlərinə görə, yarışda dünyanın bir sıra ölkələrindən idmançılar iştirak edəcəklər.

Avqust ayında erməni işğalında olan Azərbaycan torpaqlarında keçiriləcək 7-ci üzdəniraq ümumermәni oyunlarının məşəllərinin artıq yandırılması Azərbaycanda böyük narazılıqla qarşılanır. Qeyd edək ki, işğalçılar oyunun 3-cü məşəlini işğal altındakı Ağdam rayonunun Şahbulaq yüksəkliyində, Qarabağ xanı Pənahəli xanın tikdirdiyi qədim qalada yandırıblar.

Separatçı erməni mətbuatının yaydığı məlumata görə, qondarma rejimin başçısı B.Saakyan və digər "məmur"ların qatıldığı tədbirdə oyunların məşəlini aprel döyüşlərinin "qəhrəmanı", işğalçı baş leytenant Artur Aqasyan yandırıb...

Onu da vurğulayaq ki, qondarma ümumermәni oyunlarının birinci məşəli Türkiyənin Hatay vilayətindəki Musadağın ətəyində yerləşən erməni kilsəsində, ikinci məşəli isə Ermənistanın Türkiyə ilə sərhədi yaxınlığında, Ağrıdağın ətəyindəki Xor Virap kilsəsində yandırılıb.

**Qarabağ Azadlıq Təşkilatının (QAT) sədri, politoloq Akif Nağı "Bakı-Xəbər"ə açıqlamasında separatçı qurumun keçirdiyi saxta oyunların böyük narazılıq və hiddət hissilə qarşılandığını bildirdi.** A.Nağının sözlərinə görə, Azərbaycan ictimaiyyəti, vətəndaş institutları və dövlətimiz birləşərək erməni saxtakarlığını bütün dünyada ifşa etməlidirlər. A.Nağının bildirdiyinə görə, ermənilərin bu təxribatçı hərəkətləri sülh danışıqlarına ağır zərbə vurmaqla yanaşı, həm də qondarma rejimi tanıtmağa xidmət edir. O qeyd etdi ki, bütün gücümüzü səfərbər edərək bu oyunların baş tutmamasına çalışmalıyıq: "Biz bunu böyük hiddət və narazılıqla qarşılayırıq. Ermənilərin işğal altında saxladıqları Azərbaycan torpaqlarında belə bir qondarma oyunlar keçirməsi və xarici idmançıları da bu oyunlara cəlb etməsi yolverilməzdir. Bu məsələ ilə bağlı həm xalqımız, həm dövlətimiz bir araya gələrək ciddi şəkildə tədbir görməlidir. Bu oyunların Azərbaycanın tarixi ərazisi Xankəndidə təşkil ediləcəyi ilə bağlı məlumat bizi çox ciddi narahat etməlidir. Hesab edirəm ki, Azərbaycan Xarici İşlər Nazirliyi ölkəmizdə fəaliyyət göstərən xarici ölkə səfirliklərinə müraciət etməli və onların qarşısında tələb qoymalıdır ki, öz idmançılarının işğal altında olan Azərbaycan torpaqlarında keçirilməsi nəzərdə tutulan qondarma oyunlara getməsinin qarşısını alsınlar. Eləcə də xaricdə fəaliyyət göstərən Azərbaycan səfirlikləri, diplomatik korpusları da yerləşdikləri ölkələrə müraciət etməlidirlər. Bu olduqca ciddi bir məsələdir və ermənilərin növbəti təxribatının qarşısının alınması üçün mütəşəkkil işlər görməliyik. Sözün açığı, qondarma "respublika"da ermənilərin keçirmək istədiyi yay oyunlarının qarşısının alınması üçün çıxışlar edirik, etirazımızı bildiririk".

***Akif Nağı:** "Artıq Gürcüstan və Türkiyə xarici işlər nazirlikləri öz idmançılarının bu üzdəniraq yarışda iştirak etməsinə qadağa qoyublar"*



Ermənilərin qondarma ümumermәni yay oyunlarının məşəllərindən birini Vanda yandırdığını və orada üzdəniraq "DQR"in "bayrağı"nı qaldırdıqlarını narazılıqla qarşılayan A.Nağı hesab edir ki, onların saxta yarışın məşəllərindən birini Pənah xanın inşa etdirdiyi tarixi Şahbulaq qalasında yandırması böyük hiddət doğurur.

"Biz ermənilərin bu təxribatının qarşısının alınması üçün ciddi işlər görməliyik. Onlar mümkün qədər bu yarışda daha çox ölkədən idmançı iştirak etməsinə çalışırlar. Bildiyim qədər, artıq Gürcüstan və Türkiyə xarici işlər nazirlikləri öz idmançılarının bu üzdəniraq yarışda iştirak etməsinə qadağa qoyublar. Bu barədə erməni mətbuatı yazıb. Göründüyü kimi, artıq bu yarışın saxta və qondarma olduğunu dərk edən respublikalar var və biz də saxta ümumermәni oyunlarının baş tutmaması üçün öz təbliğatımızı bütün səviyyələrdə davam etdirməliyik" - deyə A.Nağı bildirdi.

*İradə SARIYEVA*

# İstanbulda İmamoğlunun təkrar qələbəsi - Qardaş ölkənin, AKP-nin və CHP-nin tarixində yeni dönəm başladı...

**Bütün dünyanın gözləri Türkiyədən çəkildi. Çünki həmin ölkənin ən böyük şəhərinə rəhbərlik etmək uğrunda iki partiyanın apardığı mübarizəyə son qoyuldu. Budəfəki seçkinin nəticələrini hamı qəbul etdi. Hətta ölkə başçısı Ərdoğan da qalibi təbrik etdi.**



İmamoğlunun opponenti olan Binəli Yıldırım da yeni bələdiyyə sədrini təbrik edib. Bu, eyni zamanda, bir etirafdır. Məğlubiyyəti qəbul etmək etirafı. AKP acı olsa da, bunu qəbul etmək zorunda qaldı. İmamoğlu bu qələbəni birinci turda da qazanmışdı. Onda fərqin az olması hakim partiyanı, nəyin bahasına olursa-olsun, nəticələrlə razılaşmayıb, onları ləğv etməyə vadar etdi. Onda namizədlərin topladığı səslər arasındakı fərq çox az idi, cəmi 13 min səslə ölçülürdü.

Təkrar səsvermənin keçirilməsi nəticəsində isə Əkrəm İmamoğlu 800 min fərqlə yenidən qalib gəldi. Türkiyənin daxilindəki siyasi ekspertlər hesab edirlər ki, seçkinin məhz bu sonuncla bitməsi Türkiyənin, AKP və CHP-nin gələcək talelərinə ciddi təsir edəcək.

Bildirilir ki, CHP-nin namizədi Əkrəm İmamoğlunun qələbə qazanmasının səbəblərindən biri kimi onun yumşaq davranışlarıyla yanaşı, son bir həftədə siyasi arenada gözlənilməyən hadisələrin baş verməsi də rol oynayıb. Çox açıq ifadə etmək lazımdır ki, terrorçuların başçısı Abdullah Öcalanın məktubunun yayılması, Ordu valisinin iqtidar tərəfindən müdafiəsi və bəzi xoşagəlməzliklər vəziyyəti dəyişdirdi. İki seçki arasındakı kəskin fərqin başqa bir izahı isə YSK-nın 31 mart seçkilərinin nəticələrini etirazla ləğv etməklə seçicinin iradəsi əleyhinə çıxması göstərilir. Bununla seçkidən qələbəylə çıxan tərəf zərərçəkmiş kimi xalqın gözündə ucaldı. Nəzərə alınmadı ki, xalq hər zaman çarəsiz vəziyyətdə qalanın tərəfində olur. İmamoğlu sadəcə İstanbulda deyil, 39 rayonun 28-də də yüksək nəticə əldə edib. Bu nəticələr Türkiyə üçün yeni səhifələr açacaqmı, iki seçkinin nəticələri arasındakı kəskin fərqi başqa hansı amillərlə izah etmək olar?

**Politoloq Qabil Hüseynli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Türkiyədəki son seçki həmin ölkədəki demokratiyanın yüksək səviyyədə olduğunu bütün dünyaya nümayiş etdirdi:** "Xalqın iradəsi qalan hər şeyi üstələdi. Seçkilər göstərdi ki, qapılar arxasında nə qədər çalışmalar olsa da, son nəticədə xalqın iradəsi öz rolunu oynadı. Bəlkə də tarixdə yeganə hadisədir ki, bir şəxs bələdiyyə seçkiləri uğrunda mübarizədə iki dəfə qələbə çalır. İmamoğlunun ikinci dəfə, həm də çox inamlı qələbə qazanması göstərdi ki, cəmiyyət yenilik və dəyişiklik istəyir. Bu, eyni zamanda, sübut etdi ki, CHP böyük şəhərlərdə çox dəbdədir. Yəni ölkənin mədəni elitası və bilim adamlarının cəmləşdiyi şəhərlərdə onlar AKP-ni üstələyirlər. AKP-nin nüfuzu əyalətlərdə qalıb. Orada da gedib bir tayfa başçısı ilə danışırlar, onunla da 200-300 nəfərin kimə səs verəcəyi ilə bağlı məsələni həll edirlər. Bu mənada, İstanbul seçkisini Türkiyənin siyasi həyatında bir dönüş saymaq olar. Çünki Türkiyədə deyirlər ki, "İstanbulu qazanan Türkiyəni qazanar". Hesab edirəm ki, bu gedişlə, CHP-nin güclənməsi, AKP-nin isə zəifləməsi yaşanacaq. Yəqin ki, CHP növbəti addımında Türkiyədə növbədənkənar parlament seçkilərin keçirilməsini istəyəcək. Buna nail olub, qalib də gələcək. İmamoğlunun bu qələbəsi Türkiyə tarixinə qızıl hərflərlə qeyd edildi. Əsl Atatürkün adına layiq olan qələbəydi. İstanbulla dönüş başlayacaq. Bunu CHP-nin növbəti qələbələrinin əsasını qoyan bir hadisə kimi qeyd edə bilərik. Yəqin ki, bu fonda növbədənkənar prezident seçkiləri ilə bağlı tələb də güclənə bilər".

***Qabil Hüseynli:** "İstanbul seçkisini Türkiyənin siyasi həyatında bir dönüş saymaq olar"*

*"Bunu CHP-nin növbəti qələbələrinin əsasını qoyan bir hadisə kimi qeyd edə bilərik"*

*Məhəmmədəli QƏRİBLİ*

# Rusiya Gürcüstana sanksiyaları sərtləşdirir - Azərbaycana yeni iqtisadi perspektiv açılır...

**Qonşu Rusiya və Gürcüstan arasında münasibətlərin yenidən pisləşməsi, bunun isə regionda təkcə siyasi yox, iqtisadi duruma da əhəmiyyətli dərəcədə təsir göstərməsi gözlənir. Məsələnin maraqlı tərəfi isə prosesin Azərbaycana da təsir göstərəcəyi ilə bağlıdır.**

Hadisələrin gedişi bundan Azərbaycanın iqtisadi mənfəətlərinin olacağını üzə çıxarır ki, bunu rus rəsmilər və mediası da indi açıq mətnlə vurğulayır.

Bu barədə danışmazdan öncə qeyd edək ki, hər şey Tiflisdə Gürcüstan parlamentinin binası qarşısında iyunun 20-də başlanmış aksiyalarla start götürüb. Həmin vaxt Parlamentlərarası Pravoslav Assambleyasının (PPA) Tiflisdə keçirilən 26-cı Baş Assambleyasında iştirak edən Rusiya nümayəndə heyətinə qarşı aksiyalar başlanıb. Rusiya Dumasının üzvlərinin Tiflisdə beynəlxalq tədbirdə iştirak etməsi və PPA-nın prezidenti Sergey Qavrilovun Gürcüstan parlamenti sədrinin kürsüsündə əyləşməsi bəzi deputatlar və müxalifət arasında böyük narazılıq yaradıb. Onlar aksiyalarda rus deputatların ölkədən rədd olmasını tələb ediblər. Deputat Sergey Qavrilov və Rusiya Dumasının digər üzvləri bundan sonra Tiflis hava limanından təyyarə ilə yola salınıblar. Rusiyalı deputatlar qaldıqları hoteldən çıxarkən vətəndaşların etirazları ilə qarşılaşıblar. Onlar rusiyalı deputatlar istiqamətinə su qabları atıblar. Bunun ardınca parlament spikerinin və daxili işlər nazirinin istefası, eləcə də digər tələblərlə aksiyalar keçirilib. Gürcüstan prezidenti Salome Zurabişvili Tiflisdəki iğtişaşlarda Rusiyanın beşinci kolonunu günahlandırıb. Zurabişvili Rusiyanı düşmən və işğalçı adlandıraraq, onun Gürcüstanın daxili problemlərindən yararlanmağa çalışdığını bildirib. Kreml bütün bunlardan sonra məsələyə sərt yanaşma sərgiləyib. Moskva ilk olaraq iqtisadi rıçaqları işə salıb. Rusiya baş naziri Dmitri Medvedyev isə vurğulayıb ki, Zurabişvilinin son bəyanatı qeyri-peşəkarlıqla hazırlanıb. Onun sözlərinə görə, bu cür ritorika, eləcə də antirusiya əhval-ruhiyyəsi Moskvanın öz turistlərinə Gürcüstana səyahət məsələsində lazımi məsləhət verməsilə nəticələnəcək. O, bunun nəticəsində Gürcüstanın iqtisadiyyatında real problemlər olacağını bildirib. Medvedyev situasiyanın gərginləşməsində radikal müxalifəti ittiham edib. Baş nazir Tiflisdəki etirazların səbəbini Gürcüstanın siyasi sistemində olan partlayışla əlaqələndirib.

Rusiya prezidenti Vladimir Putin iyulun 8-dən Gürcüstana sərnişin təyyarələrinin, kommersiya uçuşlarının müvəqqəti qadağan edilməsi barədə fərman imzalayıb. Turizm operatorlarına Gürcüstana turizm yollayışları satmamaq tövsiyə olunub. Rusiya Nəqliyyat Nazirliyinin məlumatına əsasən, iyulun 8-dən Gürcüstan aviaşirkətlərinə məxsus təyyarələrin Rusiya ərazisinə uçuşları dayandırılacaq. Nazirlik bəyan edib ki, Gürcüstan aviaşirkətlərinin Rusiya Federasiyasının Hava Məkanında Hərəkətin Təşkili üzrə Dövlət Korporasiyasına xeyli borcu var.

Hazırda rus turistlərin Gürcüstandan çıxarılması həyata keçirilir. Artıq "Aeroflot" aviaşirkəti Gürcüstanda olan Rusiya vətəndaşlarının ölkədən çıxarılmasına başlayıb. Bütün bunlar isə iqtisadiyyatında turizm mühüm rol oynayan Gürcüstan üçün ciddi zərbə sayılır. Rusiyanın "Avropa" İnformasiya və Toplumsal Əməkdaşlıq Platformasının sədri Eduard Popov isə bildirir ki, Rusiya Gürcüstanla bağlı daha sərt tədbirlər görə bilər. O qeyd edir ki, rus turistlərin üçdə ikisi hazırda Gürcüstana fərdi şəkildə gedirsə, böyük ehtimalla, yaxın zamanda bununla da bağlı məhdudiyyətlər yaranacaq: "Düşünürəm ki, Rusiya daha sərt tədbirlərə gedərək, öz bazarlarını Gürcüstanın şərab, meyvə və digər bu kimi kənd təsərrüfatı məhsullarınün üzünə bağlayacaq". Rusiya Federasiya Şurasının Beynəlxalq Münasibətlər Komitəsinin üzvü Oleq Morozov isə vurğulayır ki, Rusiya turistlərinin Gürcüstana getməkdən imtina etməsi bu ölkənin iqtisadiyyatına neqativ təsir göstərəcək: "Biz Gürcüstanda turizmdə liderik. İl ərzində yarım milyondan çox turist bu ölkəni ziyarət edir".

Gürcüstanın Respublikaçılar Partiyasının liderlərindən Levan Berdzenişvili isə qeyd edir ki, Rusiya aviaşirkətlərinin Gürcüstana uçuşlarının ləğvi gürcü xalqını cəzalandırmaq cəhdidir. O, Rusiya turistlərinin Gürcüstana gəlməməsinin ölkə iqtisadiyyatına təsir edəcəyini bildirib. Gürcüstanın Turizm Departamenti isə bəyanat yayıb ki, Rusiya vətəndaşları Gürcüstana tam rahat gələ bilər, ölkədə hətta antirusiya aksiyaları fonunda onlar üçün təhlükə yoxdur. Bildirilib ki, dünyanın müxtəlif yerlərindən gələn turistlər ölkənin görməli yerlərini ziyarət edə bilərlər. Amma Rusiya turistlərini artıq Gürcüstandan geri çəkir. Bir qədər əvvəl məlum olub ki, ruslar Gürcüstana olan biletlərini kütləvi şəkildə qaytarırlar. Rusiya İqtisadi İnkişaf Nazirliyi yanında Turizm üzrə Federal Agentlik artıq bəyan edir ki, Rusyadan Gürcüstana turist axını qonşu ölkədəki son hadisələrin fonunda 60-70% azalacaq. Qurum hesab edir ki, bu yay istirahət üçün Gürcüstanı seçən rusiyalı turistlər üçün əsas alternativ istiqamətlərdən biri, böyük ehtimalla, Azərbaycan olacaq. Agentliyin başçısı Zarina Doquzovanın sözlərinə görə, aviasiya vasitəsilə səyahət edən turistlərin payı ümumi axının 70-75%-ni təşkil edirdi. Bu səbəbdən avtobus turlarının satışı da arta bilər, amma bu kəmiyyət cüzi olacaq: "Bu yay əsas alternativ istiqamətlər, güman ki, Krasnodar vilayəti və Krım, Qafqazda isə - Azərbaycan və Ermənistan olacaq".




Bütün bunlar fonunda bu il Rusiyadan Azərbaycana daha çox turistin gəlişi gözlənir. Bu arada qeyd edək ki, ümuiyyətlə, cari il ərzində Azərbaycana gələn turistlərin sayı artır. Belə ki, yanvar-may aylarında Azərbaycana gələn turistlərin sayında ötən ilin müvafiq dövrünə nisbətən 3,8 faiz artım müşahidə olunub. Azərbaycan Turizm Bürosunun baş icraçı direktoru Florian Zenqstşmid deyib ki, ötən il ölkəyə 2,8 milyon turist gəlib. Çin, Koreya Respublikası və Yaponiyadan gələn turistlərin sayında 8-9 faiz artım olub. Həmçinin, Yaxın Şərq ölkələrindən, Qətər, Bəhreyn, Birləşmiş Ərəb Əmirliklərindən gələn turistlərin sayı da artıb. Amma liderlik yenə də ruslara məxsusdur və bu il onların sayının daha çox olması proqnozlaşdırılır. Beləliklə, bu il bütün deyilənlər fonunda təkcə Bakı yox, Azərbaycanın bölgələrinə də turist axınının daha da artması gözlənir.

***Nahid SALAYEV***

# Ermənistanın Rusiyaya qarşı yeni kampaniyası - səfir Konstitusiya Məhkəməsini ələ almaqda suçlanır

**Ermənistanda anti-Rusiya ovqatını qızışdırmağa cəhdlər davam edir. Rusiyanın həmin ölkədəki fəaliyyəti üzərində rəsmi Moskvaya ittihamlar yağdırılır. Bir neçə gün əvvəl Rusiyanın Ermənistandakı səfiri Sergey Kopırkinin Robert Köçəryanla ikincinin ofisində görüşməsi üzərində Ermənistanın ictimai-siyasi dairələri böyük ajiotaj yaratdılar. Hətta həmin hərəkətinə görə səfiri XİN-ə çağırıb ona xəbərdarlıq da etdilər.**



## *Elşən Mustafayev: "Rusiyanın bu gedişləri, bəzi məmurların açıq şəkildə Paşinyandan üz çevirməsi Ermənistanda yeni dönəmin başlandığına işarədir"*

İndi də səfirin Konstitusiya Məhkəməsində həmin qurumun sədri ilə görüşməsi faktını ölkənin daxili işinə qarışmaq kimi qəbul edirlər. Hətta bildirilir ki, Rusiya bununla Köçəryanın nəinki azadlıqda qalmasını, həmçinin, onunla bağlı olan cinayət təqibinə son verilməsinə nail olmaq istəyir. Erməni mətbuatı iddia edir ki, məhz həmin görüşdən sonra R.Köçəryanın iki ərizəsi icraata qəbul edilib. Hər iki şikayətin birləşdirilib bir yerdə baxılmasına qərar verilib. Bildirilir ki, Rusiya, faktiki olaraq, bu cür təzyiq rıçaqları ilə Ermənistanın daxilindəki vəziyyəti gərginləşdirir və yeni hakimiyyəti siyasi səhnədən sıxışdırmağa çalışır. Bu ittihamdan həm də belə nəticə hasil olur ki, hətta Ermənistanın ali vəzifəli şəxsləri belə Paşinyanın əleyhinə Rusiya ilə açıq əməkdaşlığa gedirlər. Ermənistanda Rusiyaya qarşı başladılan bu kampaniya bir nəticə verə bilərmi?

**Siyasi məsələlər üzrə ekspert Elşən Mustafayev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bu cür məsələlərdə Rusiyanı günahlandırmaq həm də vəziyyətdən çıxış yolu kimi dəyərləndirilir:** "Baş verən hadisə bir daha sübut edir ki, Paşinyan hakimiyyətin digər qolları üzrə üstünlüyünü təmin edə bilməyib. Müdafiə, təhlükəsizlik və ədliyyə qurumlarında da olan yüksək rütbəli zabitlər, işçilər Paşinyanın hakimiyyətilə barışmaq istəmirlər. Paşinyanın prosesin qarşısını ala biləcək siyasi gücü yoxdur. Köçəryanın həbsdə saxlanması "Qarabağ klanı"nı olduqca narahat edən məsələlərdən biri idi. Paşinyan dəfələrlə Qarabağa səfər edib, oradakı mövqeyini gücləndirməyə çalışsa da, son hadisə göstərdi ki, o, belə dəstəkdən məhrumdur. Məhkəmə sistemi, demək olar ki, Paşinyana qarşı çıxdı. Onun yeganə ümidi xalqın məhkəmələri boykot etməsinə qaldı, o da bir nəticə vermədi. Bununla sübut olunur ki, köhnə klan yavaş-yavaş təşəbbüsü ələ alır və Paşinyan üzərində ilk qələbəsini əldə etmiş oldu. Serj Sarkisyan, Robert Köçəryan, Bako Saakyan və Arkadi Qukasyanın bir cəbhədə birləşərək Paşinyana qarşı olmaları bəllidir. Bu prosesin sürətləndiyi özünü Köçəryanın azadlığa çıxmasından sonra daha qabarıq göstərir. Təbii ki, həmin klanın arxasında hər zaman Rusiya durub. Məhz Rusiyanın dəstəyilə köhnə hakimiyyət Qarabağı və ətraf rayonları işğal edə bildi. İnqilabın ilk anında açıq hərəkət etməyən Rusiya birillik fasilədən sonra uyğun zaman bilib, bu cür addımların atılmasına icazə verir. Əslində, Rusiyanın səfirinin davranışlarında qanunsuz nəsə yoxdur, amma alt məna var. Bununla deyirlər ki, istənilən vaxt Köçəryanı prezident edə bilərik. Rusiyanın bu gedişləri, bəzi məmurların açıq şəkildə Paşinyandan üz çevirməsi Ermənistanda yeni dönəmin başlandığına işarədir. Rusiyaya yağdırılan ittihamlar fayda verməyəcək. Çünki Moskva oranı öz təsir dairəsinə aid edib. Ona görə də səfir ölkəsinin nə etmək istədiyinə dair mesajı öz açıq davranışları ilə izah edir".

***Məhəmmədəli QƏRİBLİ***

# Gürcüstanda siyasi gərginlik toqquşma həddində - ermənilər Azərbaycanın enerji, nəqliyyat layihələrinin təhlükəyə düşməsindən sevincək olub

**Xəbər verildiyi kimi, Rusiya prezidenti Vladimir Putin Gürcüstanda baş verən son hadisələri cümə günü Təhlükəsizlik Şurasının iclasında müzakirə edib. Müzakirələrin ardınca Putin Rusiya aviaşirkətlərinin Gürcüstana uçuşlarının iyulun 8-dən etibarən dayandırılması haqda sərəncam verib.**




## *Hatəm Cabbarlı: "Həmin layihələrdən ən böyük dividendi elə Gürcüstanın özü götürürsə..."*

Bu qərar "Rusiyanın milli təhlükəsizliyinin təmin edilməsi, Rusiya vətəndaşlarının cinayətkar və digər qanunsuz hərəkətlərdən qorunması zərurəti" ilə əsaslandırılır. Habelə, sərəncama əsasən, turoperatorlara və turagentlərə tövsiyə edilir ki, Gürcüstan kurortlarına turpaketlərin satışından çəkinsinlər. Rusiya XİN isə iyunun 21-də bəyanatla çıxış edərək, ölkə vətəndaşlarına "şəxsi təhlükəsizlikləri baxımından" Gürcüstana səfərlərdən çəkinməyi tövsiyə edib. XİN Gürcüstanda yaranmış daxili siyasi vəziyyətdən ciddi narahatlıq bildirib.

Xatırladaq ki, pravoslav parlamentlərarası Assambleyasının Tiflisdə keçirilən iclası zamanı Rusiya nümayəndə heyətinin rəhbəri, Dövlət Dumasının deputatı Sergy Qavrilov Gürcüstan parlamentinin spikerinin kreslosunda oturub. Həmin məqamda spiker İrakli Kobaxidze Azərbaycanda səfərdə idi. Rusiyalı deputata hakimiyyət tərəfindən bu cür diqqətin göstərilməsi müxalifəti hiddətləndirib və iyunun 20-də axşam Gürcüstanda çoxminli etirazlar başlayıb. Təhükəsizlik qüvvələri parlament binasına hücum edən kütləni dağıtmaq üçün güc tətbiq edib, yüzlərlə adam yaralanıb. Bir nəfərin xəstəxanada öldüyü bildirilir. Spiker Kobaxidze dünən istefa verməli olub. Aksiyalar ötən gün də davam edib və müxalifət tərəfdarları bir gün əvvəl tutulanların dərhal azadlığa buraxılmasını tələb ediblər. Faktiki olaraq Azərbaycanla qonşu olan ölkədə stabillik pozulub, ölkə, demək olar ki, inqlab ərəfəsindədir. Yaranmış vəziyyətdən istifadə edən erməni mediası maksimum dərəcədə bizim ziyanımıza olan təbliğata start verib. Onlar iddia edirlər ki, güya qonşu ölkədə baş verənlərdə Azərbaycan izi də müşahidə edilir. Və nəticə etibarilə erməni analitikləri gah Cavaxetiyada "Qarabağ ssenarisi"ni reallaşdırmağa çalışmaqla Gürcüstanla əlaqələrin kəskinləşməsinə oynayırlar, gah da ciddi cəhdlə Tiflis-Bakı əlaqələrinə zərbə vurmağa səy edirlər. Onlar hətta baş verənlərin fonunda Azərbaycanın iri investisiya layihələrinin taleyinin də pis olacağına dair rəylər verirlər. Gürcüstandakı proseslərin Azərbaycanın həmin ölkədəki maraqlarına, iri layhələrinə nə kimi təsiri ola bilər?

Siyasi elmlər doktoru Hatəm Cabbarlı "Bakı-Xəbər"ə bildirdi ki, Gürcüstanda son iki gün ərzində baş verən hadisələr siyasi hakimiyyətin hələ tam oturuşmadığını göstərən ən önəmli sübutlardan biridir:"Rusiya nümayəndələrinə törədilən təxribat və provakasiya genişlənməyə başladı. Bu artıq kiçik bir hadisədən hökumətin istefası tələblərinə qədər yol aça bilib. Artıq pralament sədri istefa edib, daxili işlər naziri də istefa edəcəyini bəyan edib. Vəziyyətdən görünür ki, son illər Gürcüstanın mövcud hakimiyyətinin Rusiya ilə münasibətləri qaydaya salması siyasətinə görə ölkədə böyük bir narazı kütlə yaranıb. Əlbəttə, bizmlə qonşu olan ölkədə stabilliyin olması önəmlidir. Bunula yanaşı, Azərbaycanın Gürcüstanda həm də iqtisadi maraqları əks olunur. Ora xeyli sərmayə qoymuş ölkəyik. Bunu istər enerji resurslarının nəqli, istərsə də digər sahələrə aid etmək olar. Son günlərdə baş verən hadisələr hələlik Azərbaycanın iqtisadi maraqlarına o qədər də təhlükə yaratmır. Amma hadisələrin böyüməsi və ümumi təlatümə çıxması Azərbaycanın sərmayəsi üçün problemlər yarada bilər. Praktikadan bəllidir ki, dövlətlərdə baş verən çaxnaşmalar zamanı hakimiyyətə gələn istənilən qüvvə beynəlxlaq razılaşmaları qoruyub saxlamaqda maraqlı olur.

Hesab edirəm ki, baş verə biləcək hər hansı bir hakimiyyət dəyişikliyi belə bizim iqtisadi maraqlarımıza ziyan verməyəcək. Çünki həmin layihələrdən ən böyük dividendi elə Gürcüstanın özü götürürsə, niyə bundan yan keçmək istəsinlər? Təbiidir ki, bu ətrafda erməni təbliğatı ciddi şayihələr yayır. Amma bunlara əhəmiyyət vermək lazım deyil. Hadisələr daha da böyük miqyas alacağı təqdirdə, Azərbaycan iqtisadi maraqlarının qorunması ilə bağlı qarşı tərəflə müzakirələr apara bilər. Hələlik elə bir ciddi təhlükə görünmür. Amma hadisələri diqqətlə izləməmiz lazımdır".

***Məhəmmədəli QƏRİBLİ***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Azərbaycan sülh danışıqlarında Ermənistana tam psixoloji-siyasi təzyiq mühiti formalaşdırdı

**ATƏT-in Minsk Qrupunun həmsədrlərinin iştirakı ilə iyunun 20-də Vaşinqtonda Azərbaycan və Ermənistanın xarici işlər nazirləri Elmar Məmmədyarovla Zöhrab Mnatsakanyanın keçirdiyi görüşdən sonra Dağlıq Qarabağ münaqişəsi ilə bağlı proseslərin hansı istiqamətdə inkişaf edəcəyi barədə indi müxtəlif maraqlı fikirlər səslənir.**

Həmin görüşdən belə bəlli oldu ki, tərəflər arasında fikir ayrılıqları olsa da, danışıqlar prosesinin davamı məqbul sayılıb. Aparılan müzakirələr zamanı isə tərəflər bölgədə baş verən son hadisələr və nizamlanma prosesinin əsas məsələləri barədə fikir mübadiləsi aparıb. XİN rəhbərləri vasitəçilərin regiona son səfərləri zamanı təklif etdikləri humanitar və təhlükəsizlik tədbirlərinin həyata keçirilməsi ilə bağlı gözlənti və mövqelərini ifadə edib.

Həmsədrlərlə söhbət zamanı XİN rəhbərləri gərginliyin azaldılması üçün mövcud birbaşa əlaqələrdən tam şəkildə yararlanmağın vacibliyini vurğulayıb. Qeyd edək ki, həmsədrlərin himayəsi altında xarici işlər nazirləri yaxın vaxtlarda yenidən görüşmək barədə razılığa gəlib. Xatırladaq ki, daha öncə Azərbaycan yalnız nəticəsi olan danışıqları davam etdirməyə hazır olduğunu bəyan etmişdi. İndi hesab olunur ki, əslində danışıqlar vasitəsilə prosesi irəliyə doğru aparmağa müəyyən ümidlər yarandığından, Bakı İrəvanla danışıqlar prosesini davam etdirməyi məqbul sayır. Maraqlıdır ki, belə bir vaxtda Ermənistanda da məsələyə maraqlı yanaşma tərzi sergilənir. Erməni politoloq Arman Melikyan Elmar Məmmədyarov və Zöhrab Mnatsakanyan arasında baş tutan görüşü şərh edərkən bu xüsusda bildirir: "Elə hiss edirəm ki, keçən il Ermənistanda baş tutan parlament seçkilərindən sonra danışıqlar aparan vəzifəlilərimiz tədricən "Madrid prinsipləri" çərçivəsində təqdim edilən danışıqlar gündəminə qayıtmağa başlayıblar".

Xatırladaq ki, Bakı konfliktin "Madrid prinsipləri" əsasında çözümündə müəyyən düzəlişlərdə maraqlı olduğunu bildirir. "Madrid prinsipləri" isə hələ ATƏT-in 2009-cu ilin noyabrında İspaniyanın paytaxtı Madriddə keçirilən Nazirlər konfransında ATƏT-in Minsk Qrupunun həmsədrlərinin Azərbaycan və Ermənistan xarici işlər nazirlərinə təqdim etdikləri saziş planıdır. Bu prinsiplər Praqa prosesində bərpa edilmiş və 2006-cı ilin iyununda ictimaiyyətə açıqlanan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli üçün baza prinsiplərinə əsasən irəli sürülmüş sülh təşəbbüsünün davamı hesab edilir. Bu, 1994-cü il atəşkəs sazişindən sonra münaqişə tərəfləri arasında sülh danışıqları nəticəsində ortaya çıxan yeganə sənəddir. Prinsiplərə "mərhələli paket" sülh təklifi daxildir. Minsk Qrupu tərəfindən Azərbaycan və Ermənistan xarici işlər nazirlərinə təqdim edilmiş yenilənmiş "Madrid prinsipləri" də əsas etibarı ilə Bakının maraqlarına cavab verir. Ümumiyyətlə, yenilənmiş "Madrid prinsipləri" aşağıdakılardır: Dağlıq Qarabağın ətraf ərazilərinin Azərbaycanın nəzarətinə qaytarılması; Dağlıq Qarabağa təhlükəsizlik və özünüidarə hüququnu təmin edən müvəqqəti statusun verilməsi; İradənin hüquqi yolla ifadə edilməsi ilə Dağlıq Qarabağın yekun hüquqi statusunun gələcəkdə müəyyən edilməsi; Bütün məcburi köçkünlərin və qaçqınların öz keçmiş yaşayış yerlərinə qayıtmaq hüququ; Sülhməramlı əməliyyatların daxil olduğu beynəlxalq təhlükəsizlik zəmanəti. Bakı müəyyən dəyişikliklərlə münaqişənin bu prinsiplər əsasında həllini mümkün sayır. Sadəcə, Ermənistan hələ də prosesin irəliyə doğru getməsinə maneə yaradır. Amma Arman Melikyan qeyd edir ki, "Madrid prinsipləri" yenidən dövriyyəyə qayıdır və hazırda bəzi ərazilərinin Azərbaycana qaytarılması proqramının texniki detallarının mövzusu həqiqətən ciddi müzakirə predmetinə çevrilir: "Qorxuram ki, tədricən bəzi ərazilərin Azərbaycana qaytarılması proqramının texniki detallarının mövzusu həqiqətən ciddi müzakirə predmetinə çevrilir. Hətta hələ ki, bu məsələ ilə bağlı dəqiq bir məlumat olmasa belə, bu bizi istənilən halda məsul şəxslərimiz tərəfindən irəli sürülən şərtlərin səsləndirilən prioritetlər sırasından tamamilə kənar qalması reallığına diqqət ayırmağa vadar edir".

Bununla yanaşı, erməni mediası diqqəti ona yönəldir ki, əvvəlki dövrlərdən fərqli olaraq, vasitəçi ölkələr, xüsusən də ABŞ masa üzərində olan sənədlər əsasında münaqişənin həllində müəyyən irəliləyişlərin olması üçün İrəvana artıq ciddi təzyiq göstərir. Arman Melikyan da vurğulayır ki, "Madrid prinsipləri" və ya "Bolton planı" əsasında ABŞ məsələnin həlli istiqamətində irəliyə doğru addım atılmasını istəyir və bu fonda diqqətini Ermənistan üzərində cəmləşdirərək, İrəvanan müəyyən addımlar atmasını istəyir. O diqqətə çatdırır ki, "Bolton planı" özündə "ərazilər əvəzinə sülh" prinsipini ehtiva edir. Bu zaman Qarabağa heç bir status verilmir və işğal edilmiş ərazilər tam şəkildə Azərbaycanın tərkibinə qaytarılır, əvəzində Bakı Ermənistanın regional layihələrə qoşulmasına "yaşıl işıq" yandırır, Türkiyə ilə sərhədlər açılır. Vaşinqtonun bunu istədiyinə dair informasiyalar var və ABŞ-ın burada əsas marağı Rusiyanı regiondan çıxarmaq, Ermənistanı Moskvanın hərbi və iqtisadi asılılığından xilas etmək, xüsusilə enerji layihələrinin təhlükəsizliyini təmin etməkdir. ABŞ məsələlərə kompleks olaraq yanaşır və burada Azərbaycanın maraqlarının təmin edilməsi perspektivi aydın görünür. Hərçənd, buna nail olub-olmayacağını sonrakı proseslər müəyyənləşdirəcək. Digər tərəfdən belə görünür ki, ABŞ münaqişədən regiona təsir aləti kimi istifadə etmək məqsədi güdmür, əsas hədəfi regionda geosiyasi maraqlarına zidd olan problemləri həll etməkdir. Vaşinqtonda nazirləri görüşün təşəbbüskarı kimi çıxış edən dövlət katibi Mayk Pompeonun deyil, Con Boltonun qarşılaması isə Qarabağ münaqişəsinə dair "Bolton planı"nın mövcudluğu fikrini bir daha gücləndirib. Və açıq mənbələrdəki informasiyalar ABŞ-ın təkliflərinin Azərbaycanın maraqlarına uyğun gəldiyini deməyə əsas verir.

Bütün bunlar bu qənaətə gəlməyə əsas verir ki, danışıqlar prosesi "Madrid prinsipləri" və ya "Bolton planı" əsasında getsə də, Azərbaycanın lehinə olan istiqamətdədir. Sadəcə, indi əsas məsələ Ermənistanın danışıqlarda əldə ediləcək razılıqlara nə dərəcədə əməl edəcəyidir. Aydındır ki, İrəvan müvafiq addımlar atmayacağı təqdirdə məsələnin həlli başqa istiqamətə yönələcək. Bu isə iki cəhətdən Ermənistan üçün sərfəli sayılmır. Əvvəla, Ermənistan Azərbaycanın sərt hərbi zərbəsi ilə üzləşməli olacaq. İkinci bir tərəfdən dünya ictimaiyyətinin, o cümlədən vasitəçilərin İrəvana təzyiqləri artacaq. Çünki yuxarıda qeyd olunduğu kimi, artıq onlar da Qarabağ məsələsində dinc müstəvidə müəyyən irəliləyişlərin olmasını istəyir. Amma Ermənistanın buna maneə yaratması indi həmsədrlərin özləri üçün də məqbul deyil. İlk növbədə o baxımdan ki, belə vəziyyət həm həmsədrlərin qarşı olduğu müharibəni körükləyir, həm də onların fəaliyyətinin nəticəsizliyini üzə çıxarır. Bu isə həmsədrlərin reputasiyası baxımından da məqbul sayılmır.

Beləliklə, qeyd edilənlər fonunda yaxın tezlikdə Qarabağ münaqişəsinin həlli istiqamətində hansısa yeniliklərin olması istisna deyil. Azərbaycan bu istiqamətdə niyyətinə hərbi müstəvidə də çatmağa tam hazırdır. Rus politoloq Sergey Markov xatırladar ki, hazırda Azərbaycan Ermənistandan hərbi müstəvidə də çox güclüdür və İrəvanın bunu nəzərə alması olduqca mühümdür:"Azərbaycan davamlı olaraq hərbi gücünü də artırır. Ermənistan görməlidir ki, ötən müddətdə Azərbaycan sürətlə inkişaf edib. Azərbaycanın iqtisadiyyatı və ordusu daha güclüdür, əhalisi 10 milyon nəfərə çatıb. Hazırda Azərbaycanın hərbi büdcəsi Ermənistanın dövlət büdcəsindən daha artıqdır. Bu, Azərbaycan ordusunun Dağlıq Qarabağı işğaldan azad etmək üçün müharibəyə hazır olduğunu göstərir. Azərbaycan ordusu müharibəyə hazırdır. Amma Ermənistan barəsində bunu demək olmaz və bu səbəbdən İrəvan mütləq şəkildə reallıqları nəzərə almalıdır".

Rusiyanın tanınmış ictimai xadimi, tarixçi-alim Oleq Kuznetsov da məsələyə eyni prizmadan yanaşır: "Savaşın yenidən başlanması Ermənistan üçün dağıdıcı nəticələrə gətirib çıxaracaq. Bu mənada, yaxşı olardı ki, Ermənistan sülh danışıqlarında real addımlar atmaq cəsarətini, nəhayət, özündə tapa bilsin. Əks təqdirdə savaşın yenidən başlanması qaçılmazdır. Bunu baş nazir Nikol Paşinyan özü də yaxşı bilir. Onun Vaşintonda nazirlərin görüşü zamanı "müharibə başa çatmayıb" deməsi də bunun göstəricisidir. Azərbaycan və Ermənistan arasında ərazi problemi həll olunmayıb və bu mənada Paşinyan obyektiv şəkildə ortaya çıxan bir faktı ifadə edib.

Şok terapiyası vasitəsilə Paşinyan erməni ictimaiyyətinə mövcud olan obyektiv reallıqdan xəbər verib. Ötən bu 25 ildən sonra tərəflərin əsgərlərinin səngərlərdə dayandığı, 2016-cı ilin aprelində genişmiqyaslı, ancaq lokal xarakter daşıyan hərbi toqquşmalar yaşandığı, həftədə bir neçə dəfə cəbhə xəttindən Ermənistana sink tabutlar göndərildiyi, Paşinyanın oğlu Azərbaycanın işğal edilmiş torpaqlarında hərbi xidmət keçdiyi halda, həqiqətən, hansı müharibənin başa çatmasından bəhs etmək olar? Amma bu müharibənin davamının Ermənistan üçün daha dağıdıcı nəticələrə gətirib çıxaracağını da İrəvanda yaxşı bilirlər. Bu səbəbdən Ermənistan artıq real addımlar atmalı, ya da yeni fəlakətlərə hazır olmalıdır".

Bütün bu qeyd edilənlər bir daha təsdiq edir ki, indi istər hərbi, istərsə də diplomatik cəbhədə vəziyyət tamamilə Azərbaycanın lehinədir. Bunu həmsədrlər, beynəlxalq ekspertlər və media qurumları da davamlı şəkildə Ermənistan rəhbərliyinin diqqətinə çatdırır. Sadəcə, əsas məsələ budur ki, Ermənistan tərəfi reallıqdan nəticə çıxarıb məntiqlə hərəkət etməli, zəbt edilmiş ərazilərin boşaldılmasına başlamalıdır. Əks təqdirdə düşməni ordumuzun sarsıdıcı zərbələri gözləyir.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Dünyada daha bir bank manatla istiqraz buraxmaq niyyətini açıqlayıb

**Manatın uzun müddət sabit qalan məzənnəsi ona beynəlxalq miqyasda da diqqəti getdikcə artırır. Elə bundan irəli gəlir ki, artıq müəyyən müddətdir bir sıra nüfuzlu beynəlxalq maliyyə qurumları manatla da istiqraz buraxılmasını müzakirə edir. İstisna deyil ki, yaxın perspektivdə artıq bu istiqamətdə müvafiq addımlar atılacaq.**

Xatırladaq ki, artıq bundan əvvəl Asiya İnkişaf Bankı Azərbaycan manatında istiqraz buraxmaq planını potensial sərmayəçilərlə müzakirə edib. Bankın maliyyə və risqləri idarəetmə üzrə vitse-prezidenti İnqrid van Vees bildirib ki, hökumət üzvləri ilə Maliyyə Bazarlarına Nəzarət Palatası, Bakı Fond Birjası potensial sərmayəçilərlə yaxından əməkdaşlıq edir və burada diqqət mərkəzində yer alan başlıca məqamlardan biri məhz manat istiqrazlarının buraxılmasıdır. Bankın vitse-prezidenti inkişafda olan ölkələrdə yerli valyutada istiqrazlar bazarının inkişafını iqtisadi artım üçün dönüş nöqtəsi kimi dəyərləndirərək, bununla borcalanların valyuta risqlərindən qoruna bildiyini dilə gətirib: "İndi İndoneziya rupiyahları, Qazaxıstan təngələri, Filippin pesosu kimi yerli valyutalarda istiqrazlar buraxmış Asiya İnkişaf Bankı vaxtı gələndə Azərbaycan manatı nominasiyalı da istiqraz buraxacağına ümidvardır".

Qeyd edək ki, Asiya İnkişaf Bankı postsovet məkanında ilk istiqrazlarını bu ilin yanvar ayında Qazaxıstan təngəsində 80 milyon dollar məbləğində, Asiya - Sakit okean regionunda isə ilk istiqrazlarını Filippin pesosunda 225milyon dollar məbləğində 2016-cı ildə buraxıb. Belə görünür ki, yaxın tezlikdə bank tərəfindən manatla da istiqraz buraxılışı həyata keçiriləcək. Amma bu məsələdə tək maraqlı tərəf Asiya İnkişaf Bankı deyil. Qara Dəniz Ticarət və İnkişaf Bankı (QDTİB) da Azərbaycanda milli valyutada istiqraz emissiya etməyə hazırlaşır. Rusiyanın "İzvestiya.iz" portalına müsahibəsində QDTİB-in prezidenti Dmitri Pankin bildirib ki, milli valyutada kreditləşmə 2007-2008-ci illərdə yaşanan maliyyə böhranının nəticəsidir. Belə ki, həmin dövrdə inkişafda olan ölkələrin milli valyutaları kəskin ucuzlaşmışdı: "Sahibkarlar anladı ki, krediti dollarla, mənfəəti isə milli valyutada əldə etmək olduqca risqlidir. Buna görə də, kreditləşmənin yerli valyutada aparılması ABŞ hökumətinin hesabların bağlanmasına dair tətbiq edə biləcəyi sanksiyaları nəticəsi olaraq dollardan imtina ilə bağlı deyil, bu sadəcə, likvidliyin düzgün idarə olunmasıdır". Pankin əlavə edib ki, QDTİB müəyyən bir ölkədə milli valyutada istiqrazlar emissiya edir və milli banklar və yerli kredit təşkilatlarının köməyilə onları yerləşdirir. Sözügedən qiymətli kağızların yerləşdirilməsindən milli valyutada əldə olunan vəsait böyük yerli layihələrin və yaxud xüsusi proqram çərçivəsində banklar vasitəsilə kiçik və orta biznesin kreditləşməsində istifadə olunur: "Artıq belə bir sxem Gürcüstanda, Rumıniyada işlənib. Hazırda isə biz Azərbaycanda yerli valyutada istiqraz emissiya etməyə hazırlaşırıq".




Qeyd edək ki, QDTİB-in nizamnamə kapitalı 3,45 milyard, səhm kapitalı isə 2,3 milyard avro təşkil edir. Səhm kapitalında Azərbaycan 5 faiz paya malikdir. Bank fəaliyyətə başlayandan bu günədək Azərbaycanda özəl sektora 34 layihə üzrə 339 milyon avro məbləğində kredit ayırıb. Amma belə görünür ki, yaxın tezlikdə bank tərəfindən manatla da borc ayrılacaq. Eyni zamanda manat istiqrazlarının buraxılışı beynəlxalq miqyasda Azərbaycan milli valyutasına diqqəti də əhəmiyyətli dərəcədə artırır. Ekspertlər isə bildirir ki, Asiya İnkişaf Bankının, eləcə də Qara Dəniz Ticarət və İnkişaf Bankının manatla istiqrazların buraxılması qərarına təsir göstərən əsas faktorlardan biri 2017-ci ilin əvvəllərindən etibarən manatın məzənnəsinin stabil qalmasıdır. Təbii ki, burada Mərkəzi Bankın, ümumilikdə hökumətin mövqeyi və proseslərə təsiri həlledicidir. Elə beynəlxalq maliyyə qurumları da milli valyutanın məzənnəsinin stabilliyini nəzərə alaraq, istiqrazların buraxılmasına dair qərar qəbul edir. Gözlənir ki, hələlik manatla istiqrazlara marağın artması fonunda yeni emissiyaların buraxılması həyata keçsin. Bütün hallarda, aparıcı maliyyə qurumları tərəfindən manatla istiqrazların buraxılması ölkədaxili qiymətli kağızlar bazarı üçün vacib şərtlərdən biridir. Çünki bu fonda investorlarda manat istiqrazlarına maraq artacaq. Manatın məzənnəsinin stabilliyi davam edəcəyi halda digər ölkədaxili qurumlar tərəfindən buraxılan istiqrazlara marağın artması da mümkündür.

İndilikdə də müvafiq qurumlar tərəfindən atılan addımlar manat istiqarzalırna cəmiyyətdə marağı getdikcə artırır. Məsələn, hazırda Maliyyə Nazirliyi tərəfindən milli valyutada buraxılan 1-3 illik dövlət istiqrazları təqribən 7-9 faiz gəlirliliklə yerləşdirilir. Eyni zamanda, kommersiya banklarının manatla qəbul etdiyi əmanətlərin gəlirlilik dərəcəsi 7-9 faiz, xarici valyutada isə təqribən 1-3 faiz civarındadır. Elə bu səbəbdən manat istiqazları indi xarici valyutalara nisbətdə daha çox diqqət cəlb edir. Manatın məzənnəsinin sabit qalması fonunda da Maliyyə Nazirliyinin addımları dövlət qiymətli kağızlarını alan investorlara banklarda xarici valyuta ilə müqayisədə manat istiqrazlarından daha çox gəlir əldə etmə şəraiti yaradır.

***Tahir TAĞIYEV***

# Azərbaycanda 2 milyondan çox adamın pensiya və əməkhaqqı əhəmiyyətli dərəcədə artdı




**Prezident İlham Əliyevin 18 iyun 2019-cu il tarixli Sərəncamı ilə minimum əmək haqqının 250 manata çatdırılması ölkəmizdə ilk dəfə olaraq minimum əmək haqqının yaşayış minimumunu üstələməsinə imkan verib. Bunu Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev "Trend"ə müsahibəsində vurğulayıb.**

O, hazırkı yaşayış minimumunun 180 manat olduğunu, artıq bu il sentyabrın 1-dən minimum əmək haqqının həmin yaşayış minimumunu 40 faizə yaxın üstələyəcəyini deyib. Eyni zamanda, Prezident İlham Əliyevin yeni qanunvericilik təşəbbüsü kimi, əmək pensiyasının minimum məbləği cari il oktyabrın 1-dən 160 manatdan 200 manata çatdırılacaq və bununla da minimum pensiya pensiyaçılar üçün yaşayış minimumunu (149 manat) 34,2 faizədək üstələmiş olacaq.

S.Babayev qeyd edib ki, bu, Azərbaycan dövlətinin sosial siyasətinin növbəti uğuru olmaqla, ölkəmizdəki sosial inkişafın daha bir göstəricisidir. Minimum əmək haqqının artımı 950 min insanı, dövlət sektoru üzrə müxtəlif sahələrdə əmək haqlarının artımı isə 400 min insanı əhatə edir.

Nazir ümumilikdə bu ay reallaşan sosial paketin ümumilikdə 1 milyon 350 min insanın əmək haqlarının, 750 mindən çox pensiyaçının pensiyasının, nəticə etibarilə 2,1 milyon vətəndaşın əmək haqqı və pensiya formasında gəlirlərinin ciddi şəkildə artımına imkan verdiyini deyib. S.Babayev bu artım üzrə dövlətin əlavə maliyyə yükünün isə 2 milyard manat təşkil etdiyini bildirib.

# İyun sosial islahatlarının aztəminatlı ailələrə birbaşa və dolayı təsirləri...

**Məlum olduğu kimi, Prezident İlham Əliyev növbəti dəfə əhalinin, demək olar ki, bütün təbəqələrini əhatə edən mühüm sərəncamlar imzalayıb. Dövlət başçısının sərəncamlarına əsasən, bir çox sahədə çalışan vətəndaşlarımızın əməkhaqqı 40 faiz artırıldı.**



## Vüqar Bayramov: "Bu, aztəminatlı ailələrin aylıq gəlirlərinin artmasına, onların sosial vəziyyətinin gücləndirilməsinə xidmət etmiş oldu"

Burada ən önəmli məqamlardan biri də minimum əməkhaqqının 250 manat məbləğində müəyyən edilməsidir. Qeyd edək ki, ölkə başçısı minimum əməkhaqqının və pensiyaların təxminən 40 faiz artırılması barədə sərəncam imzalayıb. Minimum əməkhaqqının artırılması nəticəsində yüz minlərlə vətəndaşın maaşı xeyli artacaq.

Əhalinin rifah halının yaxşılaşdırılmasında növbəti inqilabi addımların atılmasına imkan verən sosial islahatlar paketi cari il ərzində minimum pensiyanın məbləğinin növbəti dəfə əhəmiyyətli şəkildə artırılmasına da şərait yaradıb. Məsələ ondadır ki, dövlət başçısının yeni qanunvericilik təşəbbüsü olaraq, əmək pensiyasının minimum məbləğinin 25 faiz artırılaraq cari il oktyabrın 1-dən 160 manatdan 200 manata çatdırılması nəzərdə tutulur. Ölkə başçısının əhalinin rifah halının yüksəldilməsi, xüsusilə aztəminatlı və imtiyazlı təbəqələrin sosial durumunun yaxşılaşdırılması məqsədilə minimum aylıq əməkhaqqının artırılmasına dair sərəncamı cəmiyyətdə müsbət qiymətləndirilir.

Bütün bunların fonunda, sözügedən artımlar birbaşa və dolayı olaraq aztəminatlı ailələrin sosial durumuna necə təsir göstərəcək?

**Məsələyə münasibət bildirən iqtisadçı-ekspert Vüqar Bayramovun sözlərinə görə, sözügedən artımlar aztəminatlı ailələrin sosial durumuna həm birbaşa, həm də dolayı müsbət təsir göstərəcək:** "Birbaşa olaraq bu artımlar sosial təminata daha çox ehtiyacı olan vətəndaşların sosial durumunun yaxşılaşmasına hesablanıb. Nəzərə alsaq ki, həm minimum əməkhaqqı, həm də minimum pensiya məhz sosial təminata ehtiyacı böyük olan vətəndaşların aldıqları ödənişlərdir, o zaman təbii ki, bu artımlar onların sosial vəziyyətinə müsbət təsir göstərəcək. Nəticə etibarilə bu, aztəminatlı ailələrin aylıq gəlirlərinin artmasına, onların sosial vəziyyətinin gücləndirilməsinə xidmət etmiş oldu. Məsələ ondadır ki, bunun sayəsində birbaşa gəlirlər artacaq. Bu da təbii ki, aztəminatlı ailələrin sosial vəziyyətinin yaxşılaşdırılması baxımından çox vacibdir. Çünki ailə büdcəsinin artması, birbaşa olaraq, onların sosial təminatına xidmət edir. Dolayı təsirlərinə gəldikdə isə, bu, real sektorun inkişafı timsalında özünü göstərəcək. Çünki artımlar həm də real sektorun dəstəklənməsi baxımından vacibdir. Ona görə ki, bütün bunlar həm də vətəndaşların alıcılıq qabiliyyətinin artmasına imkan verəcək. Nəticədə yerli istehsal olan məhsullara tələb artacaq. Bu da həmin məhsulların istehsalını genişləndirəcək. Bütün bunlar həm də dolayı olaraq real sektorun genişləndirilməsi və bazara daha çox yerli məhsulun çıxarılmasına imkan verəcək. Bundan həm adi vətəndaşlar, həm də real sektor faydalanacaq. Ona görə də sözügedən artımların çoxşaxəli faydası var".

*"Dolayı təsirlərinə gəldikdə isə, bu, real sektorun inkişafı timsalında özünü göstərəcək"*

***Vidadi ORDAHALLI***

# 8 iyuldan sonra Rusiya turistlərinin Gürcüstandan Azərbaycana dönüşü gözlənir...

**Rusiya Prezidenti Vladimir Putinin sərəncamına əsasən, iyulun 8-dən Rusiya aviaşirkətlərinə Gürcüstana uçmaq qadağan ediləcək. Rusiya tərəfinin məlumatına görə, müvəqqəti tədbirlər təhlükəsizlik məqsədilə qəbul olunub. Artıq bu ölkənin aviaşirkəti Gürcüstanda olan Rusiya vətəndaşlarının ölkədən çıxarılmasına başlayıb.**



## Çingiz İsmayılov: "Qısa müddətdə Azərbaycanın turizm şirkətləri çevik və sərfəli siyasət aparsa, o zaman daha çox rusiyalı turist gələcək"

Bu arada, Rusiya Turizm Sənayesi İttifaqının rəsmisi İrina Tyurina bildirib ki, bütün mütəşəkkil rusiyalı turistlər iyulun 8-nə qədər plana uyğun şəkildə və ya istənilən digər mümkün reyslərlə Gürcüstandan çıxarılmalıdır: "Gürcüstanla aviasiya əlaqələri dayandırılana qədər 2 həftədən çox vaxt keçəcək və bu ölkədə istirahət edən əksər insanlar yəqin ki, plana uyğun şəkildə oradan gedəcəklər. Turistlərdən istirahətini yarımçıq qoymaq istəməyən olarsa, onlar dönüş biletlərini özləri alacaqlar".

O da məlum olub ki, Gürcüstana artıq yeni turistlər getməyəcək. Çünki turizm operatorlarına tur satışlarını dayandırmaq tövsiyə olunub. Bununla belə, turistlər ya tam təzminata, ya da istirahətləri yarımçıq qalıbsa, qismi təzminata ümid edə bilərlər.

Onu da qeyd edək ki, uçuşların dayandırılması Gürcüstana səfərlərin qadağan edilməsi demək deyil, buna görə bir çox turist qonşu ölkələrdən, o cümlədən, Azərbaycandan oraya gedə bilər. Ancaq, istənilən halda, Rusiyadan Gürcüstana turist axınının dayanması həmin turistlərin digər ölkələrə üz tutmasına təkan verəcək. Sirr deyil ki, Rusiya turistlərinin üz tutduqları ölkələrdən biri də Azərbaycandır. 2018-ci ildə Azərbaycan 900 minə yaxın rusiyalı turisti qəbul edib. Bu göstərici 2017-ci illə müqayisədə 5 faiz çox olub. Rusiya ilə Gürcüstan arasında yaşanan bu hadisələrdən sonra sözügedən turistlərin Azərbaycana daha çox axın edəcəkləri gözlənilirmi? Ekspertlərin bununla bağlı gözləntiləri nədən ibarətdir?

Məsələyə münasibət bildirən turizm sahəsi üzrə ekspert Çingiz İsmayılovun sözlərinə görə, Azərbaycan tərəfi bu məsələdə daha sərfəli təkliflərlə çıxış etməlidir: "Rusiya rəsmən bildirdi ki, Gürcüstana yönəldilən turların yerinə alternativ istiqamətlər təklif olunub. Bunlar Abxaziya ilə Türkiyədir. Rusiya tərəfinin bəyanatında Azərbaycanın adı çəkilmədi. Ancaq bu o demək deyil ki, həmin turistlər Azərbaycana üz tutmayacaqlar. Təbii ki, Rusiya turistləri fərdi olaraq daha çox Azərbaycanı da seçə bilərlər. Ancaq, bununla yanaşı, gərək biz yaranan bu fürsətdən maksimum dərəcədə öz xeyrimizə istifadə edək. Bunun üçün də müvafiq üstünlükləri olan turpaketlər Rusiya turistlərinə təklif edilməlidir. Söhbət həm servis, həm də qiymət baxımından sərfəli olan turpaketlərdən gedir. Hesab edirəm ki, qısa müddətdə Azərbaycanın turizm şirkətləri çevik və sərfəli siyasət aparsa, o zaman daha çox rusiyalı turist gələcək.

**Yoxsa gözləsələr ki, haçan həmin turistlər özləri seçim edəcəklər, o zaman bunun elə də səmərəsi olmayacaq. Ona görə də bu məsələdə turizm şirkətlərinin üzərinə böyük iş düşür. Onlar gərək bundan səmərəli şəkildə faydalanmağa səy göstərsinlər. Ötən illərlə müqayisədə Azərbaycana gələn Rusiya turistlərinin sayında artım tendensiyası var. Çalışmaq lazımdır ki, daha çox turist ölkəyə gəlsin".**

*"Söhbət həm servis, həm də qiymət baxımından sərfəli olan turpaketlərdən gedir"*

***Vidadi ORDAHALLI***

# Yayın ortası - bazarlarda meyvə-tərəvəzin qiyməti düşmür...

**Əriyin bir kiloqramının qiyməti 5-7 manat, gilasın ən yeməli növü olan "öküzürəyi"nin qiyməti 5-8 manat, albalının bir kiloqramı 4-5 manat, çiyələyin isə qiyməti 3-4 manat… Hətta növündən asılı olaraq 9-10 manata alma, 10-11 manata gilas da var. Meyvələrin qiymətinin bu həddə olması əhalini də narazı salır.**



*Firdovsi Fikrətzadə: "Azərbaycanda kənd təsərrüfatı məhsullarının ixracı artıb"*

*Nicat Nəsirli: "Bu il meyvə ağacları çiçəklədikdən sonra yağışların yağması, dolu düşməsi mövsümi meyvələrin məhsuldarlığına təsir edib"*

Çünki sözügedən mövsüm meyvələrinin əsas yeyilmə dövrü indidir, bir müddət sonra gilas və əriyin yığımı bitəcək. Lakin qiymətlər insanların bu məhsullardan kifayət qədər bəhrələnməsinə imkan vermir. Qışlıq konservlərin bağlanması üçün isə, ümumiyyətlə, bu qiymətlər sərfəli deyil.

Ekspetlərin bir qismi mövsümi meyvələrin satış qiymətinin baha olmasının hava şəraiti ilə bağlı olduğunu bildirdi. Bu ilin aprel ayında regionlarda qarın yağması nəticəsində meyvə ağacları zərər gördü. Bu səbəbdən də bu il meyvələr qıt olduğu üçün, qiyməti ötən illə müqayisədə bahadır.

Bəzi ekspertlər isə bahalığın səbəbinin kənd təsərrüfatı məhsullarının ixracının kəskin artımı ilə birbaşa bağlı olduğunu düşünürlər. Bu il fevralın 1-dən etibarən tətbiq olunmağa başlayan "Yaşıl dəhliz" buraxılış sisteminin buna birbaşa təsir etdiyi vurğulanır.

Dövlət Gömrük Komitəsinin rəsmi məlumatında qeyd olunur ki, təkcə bu ilin may ayı ərzində 241 041.64 min dollarlıq 251 646.57 ton meyvə-tərəvəz ixrac olunub.

Mövsümi meyvələrin qiymətinin baha olmasının səbəbini öyrənmək üçün mütəxəssislərə müraciət etdik.

**Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Tədqiqatlar Mərkəzinin müşaviri Firdovsi Fikrətzadə bildirdi ki, Azərbaycanda kənd təsərrüfatı məhsullarının ixracı artıb:** "Bu il kənd təsərrüfatı məhsulları və qida məhsullarının ixracında 37,6 faiz artım qeydə alınıb. Sizin sadaladığınız meyvələrə gəlincə, may ayı ərzində 30 ton ərik, gilas, albalı ixrac olunub. Bu da elə böyük rəqəm deyil. Nəzərə almalıyıq ki, mövsüm təzə başlayıb. Həmin meyvələr yeni yetişməyə başlayıb. Ona görə də həmin meyvələrin baha olması normaldır. Bir müddət sonra bu məhsulların qiyməti ucuzlaşacaq. Məlumat üçün bildirim ki, Kənd Təsərrüfatı Nazirliyi qiymət siyasətinə qarışmır".

**Kənd təsərrüfatı üzrə ekspert Nicat Nəsirli bildirdi ki, bu gün mövsüm meyvələrinin qiymətinin baha olmasının bir neçə səbəbi var:** "İlk səbəb çəyirdəkli meyvələrin ilkin yaz dövründə mayalanma prosesinin getməsinə iqlimin təsiri oldu. İki həftə yağan yağışlar, dolu üzündən mayalanma prosesi zəif getdi. Bu gün çəyirdəkli meyvə ağaclarına vizual baxışla da bunu görmək mümkündür ki, ağacın bir tərəfində mayalanma gedib, digər tərəfində yox. Bu da məhsuldarlığa öz təsirini göstərdi. Digər səbəb iri təsərrüfatlardan mövsüm meyvələrinin Rusiya bazarına daşınmasıdır. Bu gün Rusiya bazarında mövsüm meyvələrinə tələbat böyükdür. Başqa səbəb isə mövsüm meyvələrinin məhsulvermə dövrünün qısa olmasıdır. Bu meyvələrin məhsulvermə dövrü 40-45 gün çəkir. Bu da qiymətə təsir edir. Eyni zamanda, daxili bazarda da mövsüm meyvələrinə tələbat böyükdür. Gilas ən çox sevdiyimiz meyvələrdəndir. Üstəlik, digər meyvələrlə müqayisədə bu meyvədən qışa daha çox tədarük görülür. Bütün bunlar bu gün mövsüm meyvələrinin baha olmasına gətirib çıxarır".

Həmsöhbətimiz onu da vurğuladı ki, bu il meyvə ağacları çiçəklədikdən sonra yağışların yağması, dolu düşməsi mövsümi meyvələrin məhsuldarlığına təsir edib: "Keçən il 1 hektar gilas bağından 8-12 tonarası məhsul yığılırdısa, bu il bu göstərici 4-5 tondur. Ötən il şimal bölgəsində 1 hektardan 6-7 ton ərik yığılırdısa, indi 2-3 tona düşüb. Səbəb çiçəklənmə dövründə iki həftəlik hava şəraitinin pisləşməsi ilə mayalanmanın uğurlu getməməsidir. Ağac çiçək açsa belə, maya tutmadan sovrulub gedib, bar verməyib. İkinci faktor tələbatın çox olmasıdır. Gilas və ərik bu mövsümdə prioritetdir, insanların tələbatı böyükdür. Ev təsərrüfatında mürəbbə və kompotlar bişirilir. Heç ötən il də bu məhsullar ucuz olmayıb".

Ekspert onu da vurğuladı ki, bu 3 meyvənin qiymət artımında monopoliya və sair faktı yoxdur: "Ötənilki rəqəmlərə baxsaq, 360 min ton gilas, 269 min ton ərik, 249 min ton alça, albalı cəmi 102 ton olub. Ötənilki göstəricilər belə çox da yüksək deyil. Bu il daha da az olacaq. Adını çəkdiyimiz 3 məhsul iyul ayının ilk günlərinə kimi tədarük ediləcək. Bir qədər sonra gilasın "Romonov" sortu da yetişir və onun bazara çıxması ilə gilasın qiymətində bir qədər ucuzlaşma olacaq. Bu, bir qədər gec yetişən sortdur. Hazırda "öküzürəyi" deyilən gilasın kiloqramı 4-5 manatdırsa, "Romonov" sortu daha ucuz məhsul kimi bazara girəcək. Ərik hər zaman baha olub, çünki tələbat daha çoxdur. Mən hesab edirəm ki, bu günlərdə bizim iş adamları İrandan bu meyvələri, əsasən də əriyi idxal etməyə başlayacaqlar".

***Günel CƏLİLOVA***

# Satış məntəqələrində partlayış təhlükəli helium qazlara necə nəzarət edilir...

**Bu gün uşaqlar üçün təşkil olunan əksər şənlikdə bəzək üçün helium şarlarından istifadə olunur. Tək uşaq şənliklərində deyil, eyni zamanda, bəzi dükanlar da dekor üçün hava ilə doldurulmuş şarlarla bəzənilir. Onu da qeyd edək ki, helium şarları adi şarlardan fərqli olaraq günlərlə tavanda asılı vəziyyətdə qala bilir.**



*Əntiqə Əliyeva: "Helium qazı uşaqların tənəffüs yollarına daxil olarsa, bədəndəki oksigen miqdarını aşağı salır, bu isə ölümə səbəb ola bilər"*

Məlumdur ki, adıçəkilən helium şarları qazla doldurulur. Ekspertlər isə qəti şəkildə qapalı şəraitdə helium şarından istifadəni düzgün saymırlar. Xüsusilə də uşaq şənliklərində istifadə olunan, içərisinə helium qazı doldurulmuş şarlar təhlükə mənbəyi hesab edilir. Bu günlərdə "Megafun" Əyləncə Mərkəzində helium şarlarının partlaması nəticəsində ani alışma baş verib.

Hadisə nəticəsində 6 nəfər yanıq xəsarəti alıb. Hadisə yerində olanlar arasında uşaqlar üstünlük təşkil edib.

Maraqlıdır, təhlükəsizlik baxımından helium şarlarından necə qorunmaq olar?

**Kimya sahəsi üzrə mütəxəssis Əntiqə Əliyeva bizimlə söhbətində qeyd etdi ki, helium qazı uşaqların tənəffüs yollarına daxil olarsa, bədəndəki oksigen miqdarını aşağı salır:** "Bu isə ölümə səbəb ola bilər. Helium havadan daha yüngül olduğu üçün, bədənimizə daha tez daxil olur və oksigenin yerini tutur. Bu da 5 yaşdan aşağı olan uşaqlarda ciddi fəsadlar yaradır".

Həmsöhbətimiz onu da vurğuladı ki, helium şarları havada olarsa,

*"Qapalı bir məkanda şarın partlaması..."*

onun heç bir təhlükəsi yoxdur: "Nəzərə almaq lazımdır ki, helium təsirsiz qazdır. Onun heç bir fəsadı yoxdur. Amma uşaq hava əvəzinə bu qaz mühitində olarsa, fəsadlar yarana bilər. Helium reaksiyaya daxil olmadığı üçün partlayış törətmir. Ancaq qapalı məkanda adıçəkilən bəzək əşyasının olması düzgün deyil. Bu, şarın içində olan heliumun miqdarından asılı olan bir məsələdir. Qapalı bir məkanda şarın partlaması havada həcm nisbəti yarada bilər. Həmin vaxt uşaqlarda təngnəfəslik yaranır. Bu, qazın miqdarından asılı olan məsələdir.

Bir neçə gün öncə istirahət mərkəzlərinin birində baş vermiş xoşagəlməz hadisə qapalı bir məkanda baş verib: "Hadisənin necə baş verdiyini göstərən videoya baxanda görünür ki, uşaqları əyləndirmək üçün həmin məkanda olan şəxsin məsuliyyətsizliyi ucbatından əlində olan çılçıraq şarlara dəyib və nəticədə hadisə baş verib.

**Ümumiyyətlə, helium şarları olan məkanda alışqan və ya yandırıcı olan hər hansı bir əşyadan istifadə etmək olmaz. Çünki həmin şarlar qazla doldurulub".**

***Günel CƏLİLOVA***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

# "Azərenerji" ASC-nin Reabilitasiya Proqramı və yeni hədəflər...

## ...Və bir də hədəfə doğru inamla addımlamaq əzmi...

**Hər bir varlığın və hərəkətin kökündə enerji dayandığı kimi, ölkə iqtisadiyyatının da əsasında onun keyfiyyətli enerji təminatı dayanır. O üzdən, bütün digər strateji hədəflər sırasında enerji sahəsi də Azərbaycan dövləti üçün prioritet vəzifələrin önündə gəlir. Eyni zamanda, ölkənin enerji təhlükəsizliyinin təminatı baxımından da bu sahənin önəmi böyükdür.**

Bunun real təsdiqini isə çox da uzaq olmayan keçmişdə yaşadığımız "Mingəçevir olayı" ilə hər birimiz gördük. Belə ki, 2018-ci ilin 3 iyul tarixində Azərbaycanda sanki həyat dondu. Səbəb "Azərbaycan İstilik Elektrik Stansiyası" MMC-nin açıq paylayıcı qurğular stansiyasının transformatorunda və 6-cı enerji blokunda yanğınla nəticələnən partlayışın baş verməsi idi...

Həmin olay nəticəsində bütün respublika ərazisinə elektrik enerjisinin verilişi dayandı. Bu sırada xəstəxanalarda müxtəlif aparatlara bağlı xəstələrin vəziyyəti, informasiya şəbəkəsinin çöküşü, idarə və müəssisələrdə iş ahənginin pozulması ilə ümumən ölkə iqtisadiyyatına dəyən zərər nəzərə alınarsa, sözügedən qəzanın hansı masştabda fəsadlara gətirib çıxardığını təsəvvür etmək çətin deyil.

### "Mingəçevir olayı" sonrası keçirilən Prezident müşavirəsi qarşıya hansı konkret vəzifələr qoydu...

Elə həmin olaydan dərhal sonra Prezidentin rəhbərliyilə keçirilən müşavirədə ölkənin enerji təchizatının bir və ya iki stansiyadan asılılığının nə qədər yanlış və təhlükəli olduğuna xüsusi diqqət yetirilərək, enerji təminatında fasiləsizliyi təmin etmək məqsədilə sistemli addımların atılmasına start verildi. Həmin müşavirədə Prezident İlham Əliyev çıxış edərək bildirdi ki, qəzanın səbəbləri vacib olsa da, bundan daha önəmli məsələ qəza nəticəsində ümumi sistemin sıradan çıxmasıdır":"Bu çox ciddi bir faktdır və əlavə tədbirlər görülməlidir ki, gələcəkdə əgər hər hansı bir qəza baş verərsə, ümumi sistemə bunun təsiri olmasın, yəni qəza lokal xarakter daşısın". Beləliklə də, cənab Prezidentin xeyir-duası ilə "Azərenerji" Açıq Səhmdar Cəmiyyəti yeni "Reabilitasiya Proqramı"nın tətbiqinə başladı. Müdrik atalarımızın "Hər şərdə bir xeyir var" deyimi burada çox yerinə düşür. Düzdür, müstəqilliyini qəbul etməsindən ötən illər ərzində Azərbaycan çox uğurlara imza atıb, az qala ölkə həyatının bütün sahələri yenidən qurulub, bazası sağlam olan sahələr daha modern hala gətirilib, "yerində sayanları" isə inkişaf etdirilərək günün tələblərinə cavab verəcək səviyyəyə qaldırılıb. Lakin enerji sahəsində məlum hadisənin baş verməsi sanki zamanında ölkənin enerji təhlükəsizliyinin daha həssas məsələ olduğunu bir daha diqqət mərkəzinə gətirdi. Üstəlik, erməni mətbuatının "Mingəçevir olayı" ilə bağlı sevincək xəbərlər tirajlaması, hadisəni "üfürərək" faciə şəklində təqdim etməsi, hətta Azərbaycanda sadə vətəndaşların yaşadığı çaşqınlığı panikaya çevirmək məqsədilə dövriyyəyə guya Mingəçevirə mərmi atmaları kimi feyk xəbərlər buraxması sözügedən sahənin nə qədər həssas bir mövzu olduğunu bütün çılpaqlığı ilə ortaya qoydu. Belə bir vaxtda operativ şəkildə hazırlanaraq tətbiqinə başlanılan "Reabilitasiya Proqramı" ölkəmizin uğurlarını gözü götürməyən bədnam qonşularımıza Azərbaycan dövlətinin gücünü və səbatını bir daha xatırlatmaqla, ölkənin enerji təhlükəsizliyinin hər cür təhdiddən qorunması üçün əlavə stimul vermiş oldu. "Azərenerji"ASC-dən verilən məlumata görə, ötən ilin payızından etibarən həyata keçirilən "Reabilitasiya Proqramı" çərçivəsində yenidən qurulan yarımstansiyalardan əlavə, digər yarımstansiyaların transformatorlarının təmir edilməsi, dəyişdirilməsi və yenisi ilə əvəz edilməsi nəticəsində 250 meqavatamperdən çox güc artırılıb. Eyni zamanda, bütün ölkə boyu enerji sisteminin çökməsinə səbəb olan Mingəçevirdəki "Azərbaycan" İstilik Elektrik Stansiyası istismar müddətini başa vurduğu üçün Prezident İlham Əliyevin göstərişilə ən müasir səviyyədə onun yenidən qurulmasına başlanıb. Hazırda Cənubi Qafqazın ən böyük istilik elektrik stansiyası olan və respublikada elektrik enerjisinə olan tələbatın 43%-ni təmin edən 8 bloklu "Azərbaycan" İstilik Elektrik Stansiyasında bütün parametrlər üzrə tikinti, yenidənqurma və bərpa işləri uğurla davam etdirilir. Ümumilikdə, ötən ilin payızından tətbiqinə start verilən "Reabilitasiya Proqramı" çərçivəsində "Azərbaycan" İstilik Elektrik Stansiyasında 3 il ərzində turbinlərin, generatorların, rele mühafizə sisteminin, sexlərin, yarımstansiyaların, 500 və 330

kilovoltluq hava xətlərinin, əks-qəza avtomatikasının tamamilə yenidən qurulub bərpa edilməsi nəzərdə tutulub. Bu günə qədər Proqram çərçivəsində "Azərenerji" ASC tərəfindən stansiyanın 6 saylı enerji blokunda kompleks yenidənqurma işləri aparılıb və nəticədə 60 meqavatt yük məhdudiyyəti aradan qaldırılıb. Həmçinin 500 kilovoltluq Açıq Paylayıcı Qurğunun II dövrəsinin 7 saylı enerji bloku və 1 saylı əlaqə avtotransformatorunun bütün elementləri yeni avadanlıqlarla əvəzlənərək istismara verilib. Nəticədə, 7 saylı enerji blokunun gücü 250 meqavatdan maksimum həddə - 310 meqavata çatdırılıb.



### Yerli istehsal məhsulların tətbiqi "Azərenerji"də də prioritetdir...

ASC-dən verilən məlumata görə, enerji sisteminin çökməsi Şirvan şəhərində yerləşən "Cənub" Elektrik Stansiyasındakı 2 ədəd 330 kilovoltluq avtotransformatordan birinin sıradan çıxmasına səbəb olmuşdu. Gərginliyi 330, 220 və 6 kV-a çevirən həmin avtotransformator yerli ATEF Transformator Zavodunda təmir edilərək "Cənub" Elektrik Stansiyasındakı yerinə quraşdırılıb ki, bunun özü də respublikamızın inkişafından, yerli istehsalın bütün parametrlər üzrə irəliləyişindən xəbər verir. Bunun da nəticəsində 330 və 220 kV-luq şəbəkənin etibarlılığı artırılıb, həmçinin xüsusi sərfiyyatda gərginliyin səviyyəsi 6 kV-dan 6,3 kV-a qaldırılıb. Mütəxəssislərin dəyərləndirməsinə görə, bu da xüsusi sərfiyyat mühərriklərinin işəsalma rejimini yüngülləşdirib və ehtiyat bəsləmə sisteminin etibarlılığını artırıb. Həyata keçirilən işlər nəticəsində "Cənub" Elektrik Stansiyasının gücü 520 MVt-dan 720 MVt-a qaldırılıb və bununla 200 MVt itirilmiş güc bərpa olunub. Bununla yanaşı, hidrogen istehsal edən eloktroliz, oksigen qurğularında da təmir işləri aparılıb. Hazırda sex və laboratoriyaların yerləşəcəyi ofis binası təmir olunur, kimya sexi yenidən qurulur, çənlərin bünövrəsi, yeni çənlərin quraşdırılması və borularda izolyasiya işləri aparılır. Paralel olaraq hidrogen, azot-oksigen və hava kompressorları sexinin yerləşəcəyi binada, stansiyanın girişində mövcud yanğınsöndürmə nasosxanasında təmir işləri görülür, həmçinin yağ təsərrüfatının köçürülməsi istiqamətində müvafiq tədbirlər həyata keçirilir, "Azərbaycan" İstilik Elektrik Stansiyasında yeni inzibati bina və idarəetmə mərkəzi tikilir. Proqram çərçivəsində stansiya ərazisinin perimetr boyu elektron hasarla əhatəyə alınması və kamera sisteminin qurulması işlərinin həyata keçirilməsi isə xüsusi önəm kəsb edir və bilavasitə ölkənin enerji təhlükısizliyinin hər cür təhdidlərdən daha etibarlı şəkildə qorunmasını hədəfləyir. "Reabilitasiya Proqramı"nın icrası ilə bağlı ASC-dən verilən açıqlamada bildirilir ki, ölkənin ən böyük 500 kilovoltluq Açıq Paylayıcı Qurğularından biri məhz "Azərbaycan" İstilik Elektrik Stansiyasında yerləşir ki, onun da 2-ci dövrəsində aparılan işlər artıq başa çatıb. Bundan başqa, Yuxarı Qarabağ kanalının üzərindən əhali üçün yeni körpü və yol salınması, yeraltı yanğınsöndürmə su boru sistemlərinin bərpa edilməsi istiqamətində də işlər görülür. Beləliklə də, görüləcək genişmiqyaslı işlər nəticəsində stansiyanın gücü 380 meqavatt artırılaraq 2000 meqavata çatacaq, ən əsası isə, "Azərbaycan" İstilik Elektrik Stansiyasında dayanıqlılıq və etibarlılıq təmin ediləcək.

### Azərbaycanın dünyanın enerji məkanına ölkələr aşaraq uzanan işıqlı "qolu" - "Azərenerji"...

Bu gün zəngin neft-qaz ehtiyatlarına sahib Azərbaycanın elektrik enerjisinin ixracatçısı kimi də dünya ölkələri sırasında öncül yer tutduğu faktdır. Belə ki, uzun müddətdir ölkəmiz qonşu Rusiya, Gürcüstan, İran və Türkiyəyə elektrik enerjisi ixrac edir. Bu ilin mayından etibarən "Azərenerji" ASC vasitəsilə Azərbaycan Gürcüstan və Türkiyədən tranzit keçməklə Yunanıstana, eyni zamanda Gürcüstan, Türkiyə və Bolqarıstandan tranzit keçməklə Rumıniya və Macarıstana da elektrik enerjisinin ixracına başlayıb. "Azərenerji"nin bu barədə yaydığı rəsmi məlumata görə, may ayı üçün Yunanıstan hərracında 7, Bolqarıstan hərracında 5 şirkət qalib olub ki, onların da hər ikisində "Azərenerji" ASC uğur əldə edib. Bununla yanaşı, "Azərenerji" ASC qarşıdakı aylarda Avstriya və İtaliyaya da elektrik enerjisi ixrac etməyi planlaşdırıb.

Daim inkişaf edən, təkmilləşən "Azərenerji" bu yaxınlarda modernləşdirmə istiqamətində xüsusi addım atıb. Belə ki, bu ilin may ayında ASC dünyanın aparıcı 10 konsaltinq şirkətindən biri hesab olunan "McKinsey&Company" şirkəti ilə məsləhətçi xidmətlərin göstərilməsi üçün 3 illik müqavilə imzalayıb. Həmin müqavilə "McKinsey&Company"nin modernləşdirmə işləri, yeni generasiya güclərinin yaradılması, elektrik stansiyalarının tikilməsi, enerji sisteminin idarəetməsi, idxal-ixrac məsələləri, Strateji Yol Xəritəsinə uyğun olaraq "Azərenerji"nin hədəflərinə çatmaq və digər məsələlərdə məsləhətçi funksiyasının həyata keçirilməsini nəzərdə tutur. Səhmdar Cəmiyyətin başlıca məqsədi və vəzifəsi ölkənin elektroenergetika sisteminin dayanıqlığını təmin etməklə, elektrik enerjisinin istehlakçılara etibarlı, təhlükəsiz və səmərəli ötürülməsini həyata keçirmək, öz fəaliyyətini davamlı təkmilləşdirmək, istehlakçıların tələbatını tam şəkildə ödəmək və xarici bazarda inamlı tərəfdaş mövqeyini möhkəmləndirməkdən ibarətdir. Onun "İSO 9001:2008 Keyfiyyət İdarəetmə Sistemləri" Beynəlxalq Standartının tətbiqilə əsas götürdüyü prinsiplər isə öz fəaliyyətini elektroenergetika sahəsində mövcud qanunvericilik aktları, Azərbaycan Respublikasının tərəfdaş çıxdığı beynəlxalq konvensiyalar, mübadilə və xidmətlər üzrə müqavilələrin tələblərini yerinə yetirməklə həyata keçirmək, qarşıya qoyulmuş və ölkənin mənafeyinə xidmət edən vəzifə və funksiyaları layiqincə yerinə yetirmək və davamlı inkişafa nail olmaqdır. Hazırda "Azərenerji" ASC Bakı şəhəri və ətraf qəsəbələrin, o cümlədən regionların elektrik enerjisi təchizatını daha da yaxşılaşdırmaq məqsədilə, elektrik stansiyaları ilə yanaşı, sistem əhəmiyyətli 220 və 110 kilovoltluq yarımstansiyalarda kompleks tikinti, yenidənqurma və bərpa işləri həyata keçirir. Cəmiyyətin mütəmadi yenilənən saytından əldə etdiyimiz məlumata görə, hazırda sistemtəşkiledici 220 kilovoltluq "Xırdalan", Badamdar qəsəbəsindəki "Müşfiq" yarımstansiyaları, o cümlədən Bakı və ətraf qəsəbələrdə, həmçinin rayonlarda 17 ədəd 110 kilovoltluq yarımstansiya tam yenidən qurulur. Artıq "Zabrat" və Sumqayıtdakı "Sulfanol" yarımstansiyalarında işlər başa çatıb. Digər yarımstansiyalarda aparılan yenidənqurma işləri isə yaxın aylarda yekunlaşacaq.

### İşıqlı yolun yolçuları və ölkənin rifahı...

Bəlli məsələdir ki, enerji sistemində yarımstansiyaların yenidən qurulması, o cümlədən ifrat yüklənən transformatorların dəyişdirilərək gücünün çoxaldılması avadanlıqların ifrat yüklənmə nəticəsində qızması və qəzaların qarşısının alınması baxımından çox əhəmiyyətlidir. Eyni zamanda, qəza baş verəcəyi halda yükün bir yarımstansiyadan digərinə köçürülməsi, itkilərin aradan qaldırılması və istehlakçıların fasiləsiz və daha keyfiyyətli elektrik enerjisi ilə təmin edilməsi üçün yarımstansiyaların yenidən qurulması çox önəmlidir ki, ASC də məhz bu üzdən sözügedən istiqamətdə fəaliyyətini genişləndirməkdədir.

Bütün bu sadalananlardan çıxış edərək əminliklə demək olar ki, ASC-nin bugünkü fəaliyyəti və göstəriciləri tam mənasında şirkətin qarşıya qoyduğu hədəfə doğru inamla irəlilədiyindən xəbər verir. Bu hədəf isə geniş anlamda ölkənin rifahı, işıqlı gələcəyi deməkdir və o üzdən bizə də Səhmdar Cəmiyyətə "YOLUNUZ İŞIQLI OLSUN" demək qalır...

***Samirə SƏFƏROVA***

**Yazı "Azərenerji" Açıq Səhmdar Cəmiyyəti və Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim etmək üçündür.**

# Ermənistanın Azərbaycana təcavüzü nəticəsində itkin düşmüş soydaşlarımız unudulmayacaq...

**1988-ci ildən başlayaraq Ermənistanın təcavüzünə qarşı döyüşlərdə itkin düşmüş şəxslərlə bağlı Dövlət Komissiyası və Respublika Xatirə Kitabının birgə böyük həcmli və tarixi əhəmiyyətli işinin bir hissəsi yenicə yekunlaşıb. Minlərlə Azərbaycan vətəndaşının itkin düşdüyü ana qədərki həyat yolunu özündə əks etdirən dörd cildlik xüsusi buraxılışın ilk cildi artıq çapdan çıxıb. İlk cilddə 922 nəfər gənc, yaşlı qadın, kişi və uşaqlardan ibarət Azərbaycan vətəndaşı barədə məlumatlar yer alıb. Geniş oxucu marağını nəzərə alaraq, həmin nakam soydaşlarımızın bir neçəsi barədə məlumatı gündəlik olaraq yenidən sıra ilə təqdim etməyi qərara aldıq. Daha ətraflı məlumatı Xatirə Kitabının www.xatirekitabi.az saytından əldə edə bilərsiniz. Beləliklə, sözügedən nəşrdə yer alan itkin soydaşlarımızla bağlı məlumatları diqqətinizə çatdırırıq:**

**(Əvvəli ötən saylarımızda)**

**BALAYEV AĞABƏY BALAY oğlu**



26 aprel 1967-ci ildə Azərbaycan Respublikasının Qax rayonunda doğulmuşdur. Hərbi xidmətə qədər Qax rayonunun Qorağan kəndində yaşamışdır. Qax RHK tərəfindən hərbi xidmətə çağırılmışdır. Hərbçi. Balayev Ağabəy Balay oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 14 avqust 1993-cü ildə Füzuli rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Balayev Ağabəy Balay oğlu 14 avqust 1993-cü il tarixində Füzuli rayonunun Qızılqaya yüksəkliyi ərazisində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı naməlum şəraitdə itkin düşmüşdür.

Balayev Ağabəy Balay oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**BALAYEV CAVANŞİR MUSA oğlu**



25 fevral 1958-ci ildə Azərbaycan Respublikasının Şamaxı rayonunda doğulmuşdur. Hərbi xidmətə qədər Şamaxı rayon mərkəzində yaşamışdır. Könüllü olaraq Milli Ordu sıralarına qoşulmuşdur. Hərbçi. Balayev Cavanşir Musa oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 12 iyun 1992-ci ildə Ağdam rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Balayev Cavanşir Musa oğlu 12 iyun 1992-ci il tarixində Ağdam rayonu ərazisində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı naməlum şəraitdə itkin düşmüşdür.

Balayev Cavanşir Musa oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**BALAYEV ÇİNGİZ AZAD oğlu**



17 mart 1974-cü ildə Azərbaycan Respublikasının Şamaxı rayonunda doğulmuşdur. Hərbi xidmətə qədər Şamaxı rayonunun Dəmirçi kəndində yaşamışdır. Şamaxı RHK tərəfindən hərbi xidmətə çağırılmışdır. Hərbçi. Balayev Çingiz Azad oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 4 oktyabr 1992-ci ildə Qubadlı rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Balayev Çingiz Azad oğlu 4 oktyabr 1992-ci il tarixində Qubadlı rayonunun Muradxanlı kəndi ərazisində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı naməlum şəraitdə itkin düşmüşdür və onun erməni terrorçu-quldur dəstələri tərəfindən əsir götürüldüyü ehtimal olunur.

Balayev Çingiz Azad oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**(Ardı növbəti sayımızda)**

# Azərbaycan Ordusunun qüdrəti gənclərdə vətənpərvərlik hissinin güc mənbəyi kimi...




**Günümüzdə "əsl vətəndaş vətənpərvər olmalıdır, gənclərimizə vətən sevgisi aşılanmalıdır" kimi ifadələrə tez-tez rast gəlirik. Əslində bu fikirlərin səsləndirilməsi gənc vətənpərvər övladların yetişdirilməsinə hesablanıb. Azərbaycanda isə daim bu istiqamətdə iş görülüb, bu gün də müvafiq addımlar atılmaqda davam edir.**

"Azərbaycanın gələcəyi gənclərə məxsusdur"- deyən dahi şəxsiyyət, ümummilli lider Heydər Əliyev ölkəmizə rəhbərlik etdiyi dövrlərdə gənclərimizin hərtərəfli inkişafına imkanlar açan müvafiq tədbirlər həyata keçirmiş və tez bir zamanda müstəqil Azərbaycanımızın gələcəyini qoruyub saxlaya biləcək gənc nəsillərin yetişdiyinə əminliyini belə ifadə etmişdir: "Müstəqil Azərbaycan ifadəsi indi hamı üçün əzizdir, bunu hamı təkrar edir. Ancaq hər kəs də başa düşməlidir ki, müstəqil Azərbaycanın müstəqil yaşaması üçün hər bir vətəndaşın vətəndaşlıq borcu var. Bunu təmin etmək üçün hər bir vətəndaş öz payını verməli, öz xidmətini göstərməlidir". Tariximizə nəzər salsaq görərik ki, elimizin, obamızın ən gözəl ənənələrindən biri də torpağa, ana yurda, vətənə bağlılıq, xalqımızı zaman-zaman yadelli işğalçılardan qorumaq, vətən üçün candan keçmək olmuşdur. Elə buna görə də xalqımızın vətən uğrunda, torpaq uğrunda canından, qanından keçən saysız-hesabsız, unudulmaz qəhrəmanları olmuşdur. Deməli, vətənpərvərlik, vətən sevgisi və bu kimi ifadələrə tərif tapmaq əvəzinə, "bu hissi gənclərimizə hansı vasitə ilə aşılamalıyıq" fikrinin üzərində düşünməliyik və bu ali duyğunu suya, çörəyə olan tələbat kimi övladlarımıza aşılamalıyıq.

Hazırda Azərbaycanın dünya ölkələri arasında tutduğu mövqe, yürüdülən daxili və xarici siyasət gənclərin vətənpərvər ruhda tərbiyəsində mühüm rol oynayır. Azərbaycan 2019-cu ilin birinci rübündə iqtisadi və sosial sahələrdə olduğu kimi siyasi islahatlar, beynəlxalq xarici əməkdaşlıq məsələlərində də mühüm uğurlara imza atıb. Ölkəmiz Prezident İlham Əliyevin qətiyyətli və balanslaşdırılmış uğurlu xarici siyasət xəttini davam etdirməklə beynəlxalq mövqeyini gücləndirib. Məhz Prezident İlham Əliyevin yürütdüyü Azərbaycanın milli maraqlarını təmin edən müstəqil, çevik və möhtəşəm xarici siyasət kursu xarici dövlətlərlə yüksək səviyyəli görüşlər, siyasi dialoqun gücləndirilməsi, ikitərəfli sıx əlaqələrin möhkəmlənməsi vətənpərvər gənclərin yetişməsində əhəmiyyətli vasitə kimi çıxış edir. Nazirlər Kabinetinin aprelin 30-da keçirilən iclasında dövlətimizin başçısının vurğuladığı kimi 2019-cu ilin birinci rübü beynəlxalq siyasi əlaqələr baxımından Azərbaycan üçün olduqca uğurlu və əlamətdar olub. Belə ki, 2019-cu ilin birinci rübü ərzində Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı beynəlxalq təşkilatlar, ATƏT qarşısında öz prinsipial mövqeyini qəti şəkildə bəyan etməklə Ermənistanın yeni hakimiyyətinin siyasi şousunu darmadağın etdi. Rəsmi İrəvan işğal faktında birbaşa iştirakçı olduğunu təsdiqləməklə sülh razılaşmasına əməl etməsini, əks halda ən kəskin addımlarla üz-üzə qalacağını nümayiş etdirdi. Dövlət başçısı qətiyyətli və konkret, açıq bəyanatı ilə dünya birliyinə əsil siyasi-hərbi mənzərəni bir daha təqdim etdi: "Başqa yanaşma yoxdur. Azərbaycanın ərazi bütövlüyü heç vaxt danışıqlar mövzusu olmayıb və olmayacaq. Onu da bildirməliyəm ki, danışıqlar formatı dəyişməz olaraq qalır. Baxmayaraq ki, bəzi cəhdlər olub, ancaq bizim fəaliyyətimiz nəticəsində bu cəhdlərin qarşısı alınıb. Həmçinin Minsk qrupunun həmsədrləri tərəfindən martın 9-da verilmiş açıqlama ünvanlıdır, birmənalıdır və bir daha onu göstərir ki, münaqişənin iki tərəfi var". Qeyd edək ki, cənab Prezidentin vurğuladığı kimi bu məsələ ölkəmizin ərazi bütövlüyü çərçivəsində, beynəlxalq təşkilatların qəbul etdikləri qərar və qətnamələr əsasında, Helsinki Yekun Aktına, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun həll olunmalıdır. "Biz bundan sonra da öz prinsipial mövqeyimizdə qalacağıq, ölkəmizi, ordumuzu gücləndirəcəyik". Artıq Azərbaycan gəncləri hesab edirlər ki, dövlət başçısının ciddi səyi nəticəsində ölkədə güclü ordi yaradılıb. Odur ki, hər bir Azərbaycan gənci bu orduda xidmət etməyi özünün şərəf borcu hesab edir.

YAP Siyasi Şurasının üzvü Vaqif Abdullayev hesab edir ki, dövlətin müstəqilliyinin daimiliyi, dönməzliyi onun Ordusunun Qüdrətindən asılıdır. Təsadüfi deyil ki, ölkədə hökm sürən sabitlik və həyata keçirilən islahatlar Azərbaycan Ordusunu qüdrətlənməsində əsas təməl sütunlardan biri olub: "Bu gün Azərbaycan Silahlı Qüvvələrinin Naxçıvandakı ordu və birləşmələri Ordumuzun ən güclü istinadlarındandır. Ümummilli lider Heydər Əliyevin memarı olduğu Güclü Azərbaycan Ordusu Naxçıvanda tarix yazır, 26 il əvvəl olduğu kimi Azərbaycanın suverenliyinin, müstəqilliyinin, ərazi bütövlüyünün möhkəmlənməsinə töhfəsini verir. Naxçıvan Muxtar Respublikası öz iqtisadi-siyasi, sosial-mədəni qüdrəti və həm də hərbi gücü ilə Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasında öz rəşadətini göstərə biləcək Ordumuzun ağır artelleriyası, vuran qolu, döyünən ürəyidir.

Düşmən bilməlidir ki, Naxçıvanda ölkəmizin ən peşəkar Ordusu dayanıb. Hazırda qüdrətli, məğlubedilməz Azərbaycan Silahlı Qüvvələrini bu gün regionun ən qüdrətli Ordusudur. Bu gün Azərbaycan Ordusu güclü və qüdrətlidir. Silahlı Qüvvələrimiz işğalçı Ermənistan üzərində qalibiyyət salnaməsi yazmağa qadirdir.Etiraf edilməlidir ki, Azərbaycanın belə rəşadətli ordisinin formalaşması gənclərin vətənpərvər ruhunun yüksəlməsinə öz töhvəsini vermiş olur".

***Alim***

**Azərbaycan Respublikasının Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyilə ABUİB-in həyata keçirdiyi "Azərbaycançılıq və hərbi vətənpərvərlik ideyalarının təbliği" layihəsi çərçivəsində çap olunur.**

**Ölkəmizdə həyata keçirilən uğurlu sosial siyasət nəticəsində əhalinin aztəminatlı təbəqəsindən tutmuş, müəllimlərə qədər bir sıra sahələrdə çalışanların əməkhaqqı artırılıb. Prezident İlham Əliyevin ölkədə minimum əməkhaqqının artırılması ilə bağlı sərəncamı yalnız diaqnostik qiymətləndirmədən keçən müəllimlərə deyil, diaqnostik qiymətləndirmədən keçməyən müəllimlərə də şamil ediləcək.**



# Diaqnostik qiymətləndirmədən keçməyən müəllimlərin də əməkhaqqı artacaq - yenilik...

## *Kamran Əsədov: "Hazırkı dövrdə diaqnostik qiymətləndirmənin nəticələri müəllimlərin dərs bölgüsü zamanı nəzərə alınır"*

Qeyd edək ki, əvvəlcə diaqnostik qiymətləndirmədən keçməyən müəllimlərin əməkhaqqının artırılmayacağı bildirilirdi. Bu da müəllimlər arasında müəyyən narahatlıq yaradırdı.

Təhsil Nazirliyinin Aparat rəhbərinin müavini Fərzəli Qədirovun bildirdiyinə görə, diaqnostik qiymətləndirmədən keçməyən müəllimlərin də əməkhaqlarında artım olacaq. O deyib ki, Nazirlər Kabineti tərəfindən vahid tarif cədvəli təsdiq edildikdən sonra diaqnostik qiymətləndirmədən keçməyən müəllimlərin əməkhaqlarında sentyabrın 1-dən artım olacaq (minimum aylıq əməkhaqqı artımına uyğun olaraq): "Ancaq o müəllimlər diaqnostik qiymətləndirmədən keçdikdən sonra onlar birinci istiqamət üzrə (diaqnostik qiymətləndirilməsi aparılmış müəllimlər üçün nəzərdə tutulan 20 faizlik artımla) əməkhaqqı almağa başlayacaqlar. Hər bir halda həm diaqnostik qiymətləndirmədən keçən, həm də keçməyən müəllimlər, eyni zamanda, qeyri-müəllim vəzifələrində çalışan təhsil işçilərinin də əməkhaqqının artımı sentyabrın 1-dən olacaq".

F.Qədirov, həmçinin, vurğulayıb ki, müddətli müqavilə ilə işə qəbul olunan müəllimlərin də aylıq vəzifə maaşlarında sentyabrın 1-dən 20 faiz artım olacaq: "Müəllimlərin işə qəbulunda iştirak diaqnostik qiymətləndirməyə bərabər tutulur. Bu barədə ölkə Prezidentinin sərəncamı var. Həmin sərəncamdan çıxış edərək deyə bilərik ki, diaqnostik qiymətləndirmədən keçmiş müəllimlər üçün nəzərdə tutulan 20 faizlik artım müddətli müqavilə ilə işə qəbul olunan müəllimlərə də şamil ediləcək".

Diaqnostik qiymətləndirmədən keçməyən müəllimlərin də əməkhaqqının artmasının müsbət təşəbbüs olduğunu bildirən tanınmış təhsil eksperti Kamran Əsədov qeyd etdi ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən milli təhsil islahatlarının bir hissəsini də ixtisaslı müəllim kadrlarının hazırlanması, müəllimlərin sosial vəziyyətinin yaxşılaşdırılması təşkil edir. "Son illər Azərbaycanda təhsilə qayğı ildən-ilə artmaqdadır. Bunu təhsilin bütün sferalarında aparılan davamlı islahatlar bir daha təsdiq edir. 2014-2018-ci illərdə Təhsil Nazirliyinin diaqnostik qiymətləndirmədən keçən müəllimlər arasında fərq qoyulmayacaq, artım bütün müəllimlərin əməkhaqlarına eyni səviyyədə təsir göstərəcək. Hazırkı dövrdə diaqnostik qiymətləndirmənin nəticələri müəllimlərin dərs bölgüsü

*"Hazırda onlar 80-100 manat arasında əməkhaqqı alırlar ki, 2019-cu il 1 sentyabrdan bu rəqəmlər 150 manata qədər artırılacaq"*

dirməsindən keçən müəllimlərin orta aylıq əməkhaqqı 465 manatdır. 2014-cü ildən bu günə kimi 142 min müəllim diaqnostik qiymətləndirmədən keçib. Amma maaşın artımı diaqnostik qiymətləndirmədən keçməyənlərə də şamil olunur. Əməkhaqlarının artımı diaqnostik qiymətləndirmədən keçən bütün müəllimlərə şamil ediləcək. Amma artım zamanı qiymətzamanı nəzərə alınır. Bu o deməkdir ki, diaqnostik qiymətləndirmənin nəticələri yüksək olan müəllim daha çox dərs saatı alacaq və bu da onun yüksək əməkhaqqı almasına imkan verəcək. Bu artımdan sonra təkcə Bakı şəhərində 8965 nəfər müəllimin əməkhaqqı 500-1000 manat, 476 nəfər müəllimin əməkhaqqı isə 1000 manatdan yuxarı olub. Aparılan islahat nəticəsində həmin müəllimlərin orta aylıq əməkhaqqı 465 manat təşkil etməklə, ölkə üzrə müvafiq göstəriciyə yaxınlaşıb. Yeni artımdan sonra müəllimlərin əməkhaqqı orta hesabla 77-99 manat artıb. İndi pedaqoji stajı 3 ilə qədər olan və bir stavka dərs yükü (18 saat) dərs deyən müəllim aylıq 462 manat, pedaqoji stajı 18 ildən çox olan və bir stavka dərs yükü (18 saat) dərs deyən müəllim aylıq 594 manat əməkhaqqı alacaq.

Amma diaqnostik imtahanda iştirak etməyən müəllimlər var ki, onlar 6 saata qədər dərs deyirlər və onların əməkhaqqı 2016-cı il 1 yanvara qədər qüvvədə olan ödəmə cədvəlinə uyğun olaraq həyata keçirilir. Amma 1 sentyabra qədər onlar barəsində də qərar olacaq və onların da əməkhaqları dərs saatına görə artırılacaq. Hazırda onlar 80-100 manat arasında əməkhaqqı alırlar ki, 2019-cu il 1 sentyabrdan bu rəqəmlər 150 manata qədər artırılacaq" - deyə K.Əsədov vurğuladı

***İradə SARIYEVA***

---

**Şou-biznes nümayəndələri ifa etdikləri mahnıları ilə deyil, geyimləri, hər hansı bir hərəkəti ilə gündəmdə qalırlar. Son zamanlar bəstəkar-müğənni Elza Seyidcahan şeirləri ilə daim gündəmdə olmağa üstünlük verir. Onun yazdığı cızma-qaralar sosial şəbəkə istifadəçiləri tərəfindən müzakirə olunur. Buna baxmayaraq, müğənni mahnı deyil, daha çox şeir yazmağa iddialı olduğunu ortaya qoyur.**



# Elza Seyidcahan Yazıçılar Birliyində - şou-müğənninin iddialarına tanınmış yazıçılardan reaksiyalar...

## *Elçin Hüseynbəyli: "Elza Seyidcahan şairə kimi zəifdir, ancaq gözəl müğənnidir"*

## *Tural Turan: "Təki Elza xanım AYB-yə üzv olsun, qarşıdan qurultay gəlir, şairləri, qurultay iştirakçılarını şənləndirər bir az..."*

## *Elşad Barat: "Azərbaycan Yazıçılar Birliyi şair, yazıçıları üzvlükdən çıxarıb müğənniləri Birliyə üzv etməyə başlayıbsa..."*

Bəstəkar-müğənni, Əməkdar artist Elza Seyidcahan israr edir ki, o, Yazıçılar Birliyinə üzv olacaq: "Yazıçılar Birliyinə niyə də üzv olmayım? Yəqin ki, gələcəkdə Birliyin üzvü olacağam".

Bəstəkar-müğənni Elza Seyidcahanın AYB-yə üzv olmaq istəyi ictimaiyyət, peşəkar yazıçılar tərəfindən birmənalı qarşılanmır.

**Yazıçı-dramaturq Elçin Hüseynbəyli "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, E.Seyidcahan AYB-yə üzv olmaq istəyirsə, oranın üzvü ola bilər:** "Yazıçılar Birliyi yazarların qrupu sayılır. Orada istedada qiymət verilmir, kimin nə dərəcədə qabiliyyətli olduğu heç kimə maraqlı deyil. Ancaq cəmiyyətdə kimin nə dərəcədə istedadlı olduğu hər kəsə bəllidir. Elza Seyidcahan şairə kimi zəifdir, ancaq gözəl müğənnidir. Birliyə üzv olmaq istəyərsə, şəxsən mən onu dəstəkləyərdim".

**Yazıçı Tural Turan isə qeyd etdi ki, Yazıçılar Birliyində indi çayxanada yazıb-yaradan şairlər də var:** "Hesab edirəm ki, ağzının danışığını bilməyən üzv olursa, sözünün canını bilməyən Elza xanım niyə olmasın? Üstəlik, yaxşı görkəmi də var. Görkəmi varsa, deməli, bu gün-sabah görkəmli şair deyəcəklər. Musa Yaqub kimi Xalq şairinə bir dəfə də olsun görkəmli şair demədilər. Çünki görkəmi yoxdur (gülür). Bir az daha ciddi fikir bildirmək istəyirəm, meyxanaçı Namiq Məna üzv, hətta AYB Qubadlı bölməsinin sədri olursa, Elza Seyidcahan xanım niyə olmasın?! Digər tərəfdən, istəmək çox şeydir, amma hər şey deyil. Elza xanım hər şeyini ortaya qoysa, AYB-yə üzv ola bilər. Hər şey deyəndə nəyi nəzərdə tutursunuz? - soruşa bilərsiniz. Bötövlükdə, istedadını - deyə cavab verərdim. İndi AYB-də rayondan pendir-şor gətirib üzv olan görməmişəm. Amma gözəlliklərini gətirib üzv olanlar çoxdur. Yenə də istedad gözəlliyini nəzərdə tuturam. Əgər bəziləri xalq şairi oldusa, çox keçməz, Elza xanım da olar. Təki Elza xanım AYB-yə üzv olsun, qarşıdan qurultay gəlir. Şairləri, qurultay iştirakçılarını şənləndirər bir az... Çalıb-oxuyar, alqış alar".

Yazıçı Elşad Barat isə bizimlə söhbətində qeyd etdi ki, bu yaxında Çingiz Abdullayevin maşınının şəklini paylaşdığı üçün o, AYB üzvlüyündən çıxarılıb: "Buna etiraz olaraq ciddi qələm adamlarından bir neçəsi AYB üzvlüyündən imtina etdi. Eyni zamanda, istedadlı şair Şahinə Könül də sərt münasibət bildirərək üzvlükdən imtina etdi. Belə getsə, AYB-də elə özləri qalacaq. Elza xanım mənim sevdiyim, dinlədiyim müğənnilərdəndir. Şeir yazmaq həvəsinə düşübsə, nə yaxşı, qoy yazsın. Bəlkə də onun şeirləri bizim bəzi xalq şairlərinin şeirlərindən daha maarifləndirici olacaq. Amma AYB şair, yazıçıları üzvlükdən çıxarıb müğənniləri Birliyə üzv etməyə başlayıbsa, onda Birliyin adını dəyişib Azərbaycan Müğənnilər Birliyi qoysunlar... Elza xanıma təklif edirəm ki, hərdən gəlib bizim yazarların şeirlərinə mahnı bəstələsin, sonra da gedib AYB-də oxusun".

***Günel CƏLİLOVA***

№ 110 (4008) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

25 İYUN 2019-cu il

www.baki-xeber.com




## "Azercell"dən #Hədiyyə

*"Azercell"in yenilənmiş rəqəmsal məhsullar portfelindən ödənişsiz istifadə imkanı!*

**Müasir texnologiyalar və effektiv həllər vasitəsilə insan həyatını asanlaşdırmağı hədəfləyən "Azercell" fəaliyyətində yeni bir dövrə qədəm qoyub. Belə ki, 21 iyun tarixində şirkət yeni brend kimliyini ictimaiyyətə açıqlayıb. Yeni rəqəmsallaşma strategiyası çərçivəsində "Azercell" məhsullar portfelini daha da zənginləşdirərək, abunəçilərə "Zvuk", "Bookmate", "TelekomTv", "BuludCinema" və "IVI" xidmətləri üzrə ödənişsiz premium istifadə imkanı təqdim edir.**

"Zvuk" xidməti ilə smartfonunuzda istənilən musiqi parçasını dinləmək və öz play listinizə əlavə etmək çox asandır. 21 iyun - 30 iyul tarixləri ərzində 7707 qısa nömrəsinə Bonus sözünü göndərməklə, abunəçilər "Zvuk" xidmətindən 30 gün müddətində ödənişsiz istifadə edə bilərlər.

850 000-dən çox kitabla "Bookmate" xidməti sizin sevimli virtual kitabxananıza çevriləcək. Xidmətdən 30 gün ərzində ödənişsiz istifadə imkanından faydalanmaq üçün 21 iyun- 30 iyul tarixləri ərzində 7171 nömrəsinə Bonus sözünü göndərmək lazımdır.

"Azercell" dünya və yerli kanalları mobil telefonunuza daşıyan "TelekomTV" xidmətindən də ödənişsiz premium istifadə fürsəti təqdim edir. Yararlanmaq üçün 21 iyun -30 iyul tarixləri aralığında 4040 nömrəsinə Bonus sözünü göndərmək kifayətdir.

HD formatda təqdim olunan filmləri asanlıqla izləyə biləcəyiniz "BuludCinema" xidmətindən 30 günlük ödənişsiz premium istifadə imkanını əldə etmək üçün 21 iyun-30 iyul tarixləri ərzində 4044 qısa nömrəsinə Bonus açar sözü göndərilməlidir.

"Azercell" məkanından asılı olmayaraq, ən sevilən film və serialları izləyə biləcəyiniz "IVI" xidməti çərçivəsində 10 günlük ödənişsiz premium istifadə imkanı hədiyyə edir. 21 iyun - 30 iyun tarixləri ərzində 3333 nömrəsinə Bonus sözünü göndərməklə, bu fürsətdən yararlanmaq mümkündür.

Qeyd edilən xidmətlərə ödənişsiz premium istifadə imkanı yalnız ilk qoşulma zamanı təqdim olunur. Ödənişsiz istifadə üçün ayrılan müddət başa çatdıqda, xidmətə abunəlik dayandırılır və əlavə haqq tutulmur.

"Zvuk", "Bookmate", "BuludCinema" və "IVI" xidmətinin tətbiqləri IOS və Android əməliyyat sistemlərini, "TelekomTv" tətbiqi isə yalnız Android əməliyyat sistemini dəstəkləyir. Tətbiqləri müvafiq olaraq, Applestore və ya Google Play vasitəsilə yükləmək mümkündür.

"Azercell"in yenilənmiş rəqəmsal məhsullar portfelindən ödənişsiz istifadə fürsətini qaçırmayın!

Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz.

## Zibil toplayıb, sərvət qazanır, üstəli vergi də ödəyir



**Almaniyanın Duysburq şəhərinin sakini Cem Yılmaz pul qazanmağın qəribə yolunu tapıb.**

"Axşam.az" xəbər verir ki, o, anası ilə birlikdə musiqi festivalı keçirilən meydançalardan şüşə və plastik qablar toplayaraq satır. Yılmaz bildirib ki, bu yolla ildə 23 min avro qazanır. "Bu yaxınlarda keçirilən "Rock am Ring" festivalında 85 min adam iştirak etmişdi. Həmin festivaldan sonra yığdığım qabları 9 min avroya satmışam", - deyə, o bildirib. Qeyd edək ki, bu qazanca görə o böyük miqdarda vergi ödəyir.

## İtkin düşən fermer timsahın mədəsindən çıxdı



**İndoneziyada itkin düşən bir fermerin timsahlara yem olduğu bildirilir.**

"Ölkə.az" bildirir ki, kənd sakinləri tutduqları timsahın qarnını yarıb fermerin meyitini çıxarıblar. Hadisə İndoneziyanın Riau əyalətində baş verib. Vartoyo adlı fermer qəflətən yoxa çıxıb. Yaxınları fermerin sonuncu dəfə görüldüyü Lakar çayında axtarışlara başlayıblar.

Çayın sahilində uzanan bir timsahın yanında insan bədəninin parçalarını görüblər və fermerin timsaha yem olduğundan şübhələniblər. Kənd sakinləri timsahı tutub ağzını bağladıqdan sonra kəndə gətiriblər. Timsahı öldürən və qarnını yaran kəndlilər fermerin meyiti ilə qarşılaşıblar. Məlum olub ki, onun bədəninin üst hissəsi tamamilə parçalanıb və sadəcə, ayaqları qalıb. Kəndin nümayəndəsi bildirib ki, çayda timsah çox olsa da, bu tip hadisələr nadir hallarda baş verir. Onlar timsah hücumunun bir cəza olduğuna inanırlar.

## Elan

Binəqədi rayonu, Novxanı kəndində Kərimov Paşa Nəhməd oğlunun adına olan 569 A saylı bağlar müqaviləsi itdiyi üçün etibarsız sayılır.

Nazarov İlkin Arzu oğluna məxsus, Bakı şəhəri, Xəzər rayonu, Şağan qəsəbəsi, Y.Əsədullayev küçəsi, 1-ci döngə, ev 3 D ünvanına verilmiş çıxarış (seriya 0966681) itdiyi üçün etibarsız sayılır.

Əsgərov Nail Ədalət oğluna Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Əsgərov Orxan Vaqib oğlunun adına, Qusar rayonu, Balaqusar kəndində yerləşən (JN-200F, kod 30106018 nömrəli ) 12 sot torpağın şəhadətnaməsi itdiyi üçün etibarsız sayılır.

Hacıyev İlham Niyaz oğluna Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi tərəfindən verilmiş müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Əliyeva Zemfira Mirzəağa qızına məxsus (VÖEN 1400150552) möhür itdiyi üçün etibarsız sayılır.





**Qoç** - Günü ailə üzvlərinizə və özünüzə həsr edin. Böyük dəyişikliklər olmayacaq və sizdən də əlahiddə səylər tələb edilməyəcək. İzafi emosionallıq və hissiyyat sakitlik, hərəkət, diqqət və qayğı tələb edir.



**Buğa** - Gün təmaslar, danışıqlar və xəbərlər baxımından zəngin olacaq. Çox iş görməli, müxtəlif tapşırıqları yerinə yetirməli, nəyisə tapmalı və ya təşkil etməlisiniz. Effektivlik orta səviyyədən aşağı olmasın deyə, tənbəllik etməyin.



**Əkizlər** - İfrat dərəcədə aktiv olmayın, rutin işlərlə məşğul olun və belədə gün uğurlu keçəcək. Özünüzü narahat hiss etdiyiniz yerdə çox qalmayın. İncikliyə yol verməyin, səhih danışmağa çalışın.



**Xərçəng** - Problemlər öz-özünə həllini, suallar da cavablarını tapacaq. Yeni perspektivlər yarana bilər. Münasibətlərdə ikili standartları və ya tərəfdaşınızın, iş yoldaşınızın sizi aldatmağa çalışdığını hiss edəcəksiniz.



**Şir** - Yalana düçar olacağınız situasiyaya düşməməyə çalışın. Sizi dilə tutaraq müəyyən məsələ ilə bağlı öhdəliyə nail olmağa çalışacaqlar. Bilin ki, razılıq versəniz, sonradan ciddi problemlə qarşılaşacaqsınız.



**Qız** - Bir yerdə dayanmadığınız, ətalətdə olmadığınız üçün bu gün sizi mükafatlandıracaq, mənəvi əhəmiyyət kəsb edən hadisə baş verəcək. Ola bilər ki, nədənsə əl çəkəsiniz, hansısa məsələdə güzəştə gedəsiniz.



**Tərəzi** - Hadisələrin gedişatı və olayların məcrası indi sizə aydın olsa da, yaşananlar bir anlıq olsa da, narahatlıq yarada bilər. Çünki, bütün bunları istəmirdiniz, ehtimal etmirdiniz.



**Əqrəb** - Hadisələrin gərginləşəcəyi, əsəblərin tarıma çəkiləcəyi, işlərdə və hisslərdə qeyri-stabilliyin olacağı gündür. Münasibətlərdə əminlik hiss etmədiyiniz insanla çox açıq və səmimi danışmayın.



**Oxatan** - Maliyyə məsələləri və ödənişlərdə diqqətli olun. İmpulsiv qərarlar verməyin. İşlə bağlı narahat fikirlər və maddi perspktivlərdən qaynaqlanan qayğıları daha konstruktiv məcraya yönəldin.



**Oğlaq** - İndi bir çox situasiyalarda dominant rolu oynamaq istəyirsiniz. Şərti məqamların üstündən keçməməyə, üstünlüyünüzü nümayiş etdirməməyə çalışın, yaxın ətrafınızdakı insanların hisslərinə daha çox diqqət verin.



**Dolça** - Bu günü ailə üzvlərinə, evdə bayram əhval-ruhiyyəsinin davamına həsr edin. Dostları qonaq çağırın. Emosional qeyri-stabillik alış-verişdə bədxərcliyə vadar edə bilər. Soyuqqanlı və məntiqli olun.



**Balıqlar** - Ay sizin hissiyat və emosionallığınızı artıracaq. Gün mahiyyət etibarilə rahat olacaq, məhsuldar qarşılıqlı əlaqələr, faydalı informasiya mübadiləsi və dəstək mühiti yaradacaq. Bir çox məsələləri qeyri-rəsmi şəraitdə müzakirə etmək olar.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Siçanlar kral sarayına hücum etdi, kraliça sarayı tərk etdi



**İngiltərənin Bukinhem sarayı siçanların hücumuna məruz qalıb.**

"Ölkə.az" bildirir ki, kral ailəsinin rezidensiyasının mətbəxində kəsəyən görünüb. Bundan sonra dərhal siçan və kəsəyənlərlə mübarizə idarəsinin əməkdaşları saraya dəvət edilib. Böyük Britaniya kraliçası II Elizabet dərhal sarayı tərk edib. Hazırda saray dərmanlanır. Qeyd edək ki, bir müddət əvvəl Böyük Britaniyada pişik boyda mutant-kəsəyən olduğu barədə xəbər yayılmışdı.

*Hazırladı: Ramil QULİYEV*

**Baş redaktor:** *Aydın Quliyev*

**Baş redaktorun müavini:** *Tahir Tağıyev*

**Redaksiyanın ünvanı:** *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

**Tel-faks:** *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.